Günəş Şərqdən doğur!
№ 105 (5386), 2021-ci il
Qiyməti 40 qəpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az 17 iyun 2021-ci il (cümə axşamı)



## Şuşa zirvəsi...
Bəyannaməni tarixləşdirmək üçün bundan uyğun zamanın seçilməsi mümkün deyildi
(Səh.2)

# "Bütün dünya bilsin..."





### Ərdoğanı parlamentdə millət vəkilləri ayaq üstə alqışladılar

"Qafqazda qanayan yara sağalıb. Bundan bütün bölgə ölkələri qazanclı çıxacaq". Bu sözləri dünən Milli Məclisin xüsusi iclasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Türkiyə lideri Qarabağı azad etmiş can Azərbaycanın Milli Məclisində olduğu üçün özünü bəxtiyar saydığını söyləyib.

## "Türkiyə Azərbaycanın yanındadır, bundan sonra da yanında yer alacaq"
(səh.8)

## Putin və Bayden razılığa gəlib
### "Nüvə müharibəsində qalib ola bilməz"


(səh.3)

### Son 30 ilin ən mühüm sənədi imzalanıb
Yeni müqavilədə Azərbaycanın ərazi bütövlüyünə təminat verilir
(səh.4)

### "Şuşa Bəyannaməsi Ermənistandakı revanşistlərə çox ağır zərbədir"
Tofiq Zülfüqarov: "Əsas məsələlərdən biri odur ki, artıq Türkiyə Azərbaycanın müttəfiqi kimi yanımızdadır"
(səh.5)

### Ermənilərlə birgə yaşayış mümkündür, amma...
"Şərq"in Qarabağlı içtimaiyyət nümayəndələri arasında apardığı sorğu maraqlı məqamları üzə çıxardı
(səh.9)

### Yoluxanların sayı 30-dan aşağı düşdü
Koronavirusdan 1 nəfər vəfat edib, 162 nəfər sağalıb
(səh.10)

# Şuşa zirvəsi...

## Bəyannaməni tarixləşdirmək üçün bundan uyğun zamanın seçilməsi mümkün deyildi

İyunun 15-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın işğalından azad olunan Şuşa şəhərinə tarixi səfər etdi və Qarabağın ürəyi olan Şuşada tarixi bəyannamə imzalandı. Azərbaycan üçün önəmli bir tarixdə - Milli Qurtuluş günündə, Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik bəyannaməsinə prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan imza atdılar.



**Liderlər iki dövlətin əbədiyyətə qədər bir və azad olacağını mübarək imzaları ilə təsdiqlədilər**

Şübhəsiz, Şuşa Bəyannaməsi müstəsna siyasi və tarixi əhəmiyyətə malikdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətləri bununla öz zirvəsinə yüksəldi və yeni mərhələyə qədəm qoydu. Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsini, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artıracaq. Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Türkiyə və Azərbaycan qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirir, eyni mövqedən çıxış edirlər. Həmçinin, BMT, ATƏT, Avropa Şurası, TDƏŞ, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla, beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək verirlər.

Şuşa Bəyannaməsində birgə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi də xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur. Bəyannamədə silahlı qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi də xüsusi vurğulanır.

Ticarət-iqtisadi münasibətlərə gəlincə, milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi nəzərdə tutulur. Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi qeyd olunur. Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələlər də yer alır.

Tarixi sənəd özündə Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, ümumi problemlərlə bağlı birgə addımların atılması, davamlı həmrəylik göstərilməsini də ehtiva edir.

Qeyd edək ki, Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən uca zirvəsinə yüksəlib. Xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması ölkələrimizi həmişə bir-birinə yaxın edib, xalqlarımız sevincli, kədərli günlərdə də bir-birinin yanında olub. Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi ümumilikdə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. 44 günlük Vətən müharibəsi zamanı dünya bir daha bunun şahidi oldu. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bildirdi. Bu, gücümüzə güc qatdı, Qarabağ Zəfərində mühüm rol oynadı. Xüsusən, Ərdoğanın Azadlıq meydanında keçirilən Zəfər paradında Prezident İlham Əliyevlə yan-yana dayanması ölkələrimizin birliyini, xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi.

İctimaiyyət nümayəndələri, analitiklər də hesab edirlər ki, Şuşa Bəyannaməsi Azərbaycanla Türkiyə arasındakı strateji müttəfiqlik münasibətlərinin rəsmiləşdirilməsi və iki qardaş dövlət arasındakı əlaqələrin yeni bir mərhələyə daşınmasıdır.

**Millət vəkili Arzu Nağıyev bildirib ki, Şuşa Bəyannaməsi çox mühüm məsələləri özündə ehtiva edir. Deputatın sözlərinə görə, Bəyannamə hərbi, siyasi, mədəni, iqtisadi baxımdan iki qardaş ölkənin bir-birinin yanında olması deməkdir:** "Sənədin ən mühüm müddəalarından biri də tam şəkildə təhlükəsizliklə bağlı olan bənddir. Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə iki dövlətin birgə fəaliyyəti nəzərdə tutulur. Bütün bunlarla yanaşı Zəngəzur dəhlizi vasitəsilə türk dünyasının birləşməsi, həmçinin dəhliz vasitəsilə Naxçıvandan birbaşa Türkiyəyə və Avropaya çıxışın əldə olunması böyük nailiyyətdir. Şuşa Bəyannaməsi Cənubi Qafqazda və həmçinin regionda sülhün təminatı deməkdir. Bəyannamənin bütün müddəaları düşünülmüş, hər bəndi ayrılıqda şərh olunması gərəkən çox önəmli sənəddir. Məsələnin digər bir tərəfi də ondan ibarətdir ki, ermənilər Türkiyə Prezidenti cənab Ərdoğanın Şuşaya səfərini Türkiyənin Turançılıq ideyasının yayılması istiqamətində atdığı addım kimi qələmə verməyə çalışırlar. Qərb dairələrinin də bu ideyalarla bağlı olan fikirləri məlumdur. Əslində isə Ermənistan tərəfinin gözlə görünən provokasiyalarıdır".

**Siyasi şərhçi Elçin Mirzəbəyli vurğulayıb ki, Türkiyə prezidentinin Azərbaycana səfəri və bu səfər çərçivəsində müttəfiqlik bəyannaməsinin imzalanması elə bir zaman kəsiyinə təsadüf edir ki, həm mənəvi, həm də siyasi yükünə görə, bundan daha uyğun bir vaxtın seçilməsi mümkün deyildi.** Analitikin sözlərinə görə, Şuşa Bəyannaməsinin Milli Qurtuluş Günündə imzalanması iki dövlətin əbədiyyətə qədər bir və azad olacağının mübarək imzalarla təsdiqlənmiş simgəsidir: "Şuşa bəyannaməsinin tarixi əhəmiyyəti sənədin Azərbaycanın və türk dünyasının mədəniyyət paytaxtı, mübarizə əzminin, fədakarlığının, döyüş bacarığının gerçək nümunəsi olan Şuşa şəhərində imzalanmasıdır. Şuşa Bəyannaməsinin zaman baxımından tarixi əhəmiyyəti, həm də Azərbaycanın ərazi bütövlüyünə təminat verən və bütün ərazi iddialarının üzərindən xətt çəkən Qars müqaviləsinin 100-cü ildönümü ərəfəsində rəsmiləşdirilməsidir. Məlum olduğu kimi, Qars müqaviləsinə imza atan tərəflərdən ikisi - sonradan eyni ittifaqda təmsil olunan Rusiya və Ermənistan sözügedən müqavilənin şərtlərini pozaraq, Azərbaycan ərazilərinin, o cümlədən Zəngəzurun bir hissəsini "Sovet Ermənistanı"nın inzibati ərazisinə qatıblar. Şuşa Bəyannaməsi Qars müqaviləsinin bütün şərtlərinə əməl edilməsinin vacibliyini önə çəkməklə yanaşı, Türkiyə və Azərbaycanın tarixi ədaləti bərpa olunanadək mücadilələrindən vaz keçməyəcəklərini bəyan edir!".

*E.Mirzəbəyli vurğulayıb ki, türk dövlətlərinin sözdə və fikirdə birliyi artıq reallığa çevrilib. Şuşa Bəyannaməsi isə Türk Birliyinin sözdən, fikirdən əmələ keçməsi yeni və daha praktik platformadır:* "Şuşa Bəyannaməsinin siyasi əhəmiyyətinin ana xəttini Azərbaycan və Türkiyənin adları tarixə böyük hərflərlə həkk olunmuş liderlərinin strateji baxış bucağı, polad iradələri təşkil edir. Öncə qeyd edim ki, bizim ən böyük tarixi şansımız bu gün qardaş Türkiyəyə Rəcəb Tayyib Ərdoğanın, Azərbaycana isə İlham Əliyevin rəhbərlik etməsidir. Bu, kimin necə yanaşmasından, siyasi baxışlarından asılı olmayaraq, bəsirət gözü qapanmamış hər kəsin düşüncəsində imperativ və dəyişməz bir qənaət kimi yer alan reallıqdır. Məhz bu iki liderin, bütün maneələrə, risklərə baxmayaraq, iki dövlətin bir millətinin minillik arzularının yerinə yetirilməsi istiqamətində atdıqları cəsarətli qərarlar, Türkiyə-Azərbaycan İttifaqını hər kəsin qəbul etmək məcburiyyətində qaldığı gerçəkliyə çevirib. Şuşa bəyannaməsinin siyasi əhəmiyyəti həm də milli siyasi iradənin mükəmməl bir şəkildə icra olunmasındadır".

**İsmayıl Qocayev**



## Ərdoğan və xanımının şərəfinə nahar verilib

İyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın şərəfinə nahar verilib.

*Sonra xatirə hədiyyələri təqdim olunub.*

## *Hikmət Hacıyev:* Azərbaycan beynəlxalq təhlükəsizliyin təmin olunmasında NATO-nun rolunu alqışlayır



**Azərbaycan beynəlxalq təhlükəsizliyin təmin olunmasında NATO-nun rolunu alqışlayır.**

Trend-in məlumatına görə, bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri üzrə şöbəsinin rəhbəri Hikmət Hacıyev "Azərbaycanın Avro-atlantik sülh və təhlükəsizliyə töhfəsi" adlı beynəlxalq konfransda deyib.

Onun sözlərinə görə, Azərbaycan beynəlxalq təhlükəsizliyin təmin olunmasında və dəstəklənməsində NATO-nun rolunu alqışlayır və təşkilatla mövcud sazişlərin tərəfdaşlıq prinsiplərinə sadiqdir.

## Brayza Şuşa Bəyannaməsindən danışıb

"Sənəd Türkiyənin Azərbaycanın ərazi bütövlüyünə daha çox sadiqliyini əks etdirir"

**Müttəfiqlik münasibətləri barədə Şuşa Bəyannaməsi Türkiyənin Azərbaycanın ərazi bütövlüyünə daha da çox sadiqliyini əks etdirir. Bunu Trend-ə ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza deyib.**

O bildirib ki, Şuşa Bəyannaməsinin imzalanması stabilləşdirici addımdır:

"Bəlkə də bəyannamədə ən vacib maddə üçüncü dövlət və ya dövlətlər tərəfindən ölkələrdən birinin müstəqilliyi, suverenliyi, əraz bütövlüyünə qarşı təhdid, təcavüz təqdirində birgə məsləhətləşmələrin keçirilməsi, bir-birinə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq silahlı qüvvələrin güc və komanda strukturlarının razılaşdırılmış fəaliyyətinin təmin edilməsidir. Şuşa Bəyannaməsi Türkiyənin Azərbaycanın ərazi bütövlüyünə daha da çox sadiqliyini əks etdirir".

Sabiq səfir qeyd edib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana, xüsusilə də Şuşaya səfəri vacib əhəmiyyət daşıyır.

# Türk qoşunları artıq Azərbaycanda var olacaq

Ermənistanın Xarici İşlər Nazirliyi Qarabağdakı separatçılarla birgə açıqlama yayıb. Açıqlamada olduqca gülünc və həqiqəti əks etdirməyən məqamlar var. Ermənilər açıqca etiraf edirlər ki, "Türkiyənin Qarabağa gəlişinin qarşısını ala bilmirik, Rusiya bizə kömək etsin".



## "Ermənilərin Rusiyadan gözləntiləri yersizdir"

Məlumdur ki, Rusiya Prezidenti Vladimir Putin amerikalı həmkarı Co Baydenlə görüşmək üçün Cenevrəyə yola düşüb. Bu görüşün nə qədər gərgin keçəcəyi artıq heç kəsə sirr deyil. Təsadüfi deyil ki, Kreml sahibi bu saat Baydenlə görüşün detalları üzərində fikirləşir. Əks təqdirdə Moskva nə Ərdoğanın Şuşaya gəlməsinə, nə də imzalanan Şuşa Bəyannaməsinə heç nə olmamış kimi səssiz qalmazdı. Yəni Kreml prosesə qeyri-adi bir müdaxilə etməsə də, ən azından sözlü də olsa narahat olduğunu bildirə bilərdi.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə vurğulayıb ki, Putindən qabaq Ərdoğan NATO üzvü ölkələrinin dövlət və hökumət başçılarının Brüsseldəki Zirvə toplantısı zamanı Baydenlə söhbət edib.** Analitikə görə, Bayden və Ərdoğan 40 dəqiqə davam edən görüşdə bir çox məsələdə ortaq məxrəcə gələ bilməsə də, bir məsələdə ikilinin razılaşdığı aydındır: "Əfqanıstandan ordusunu çıxaran ABŞ Türkiyənin onun yerinə bölgədə olmasını istəyir. Düzdür, Vaşinqtonun Əfqanıstandan çıxması və terrorçu elan etdiyi Talibanla görüşmələr keçirməsi bu ölkədə yeni ekstremizm ocağının yaradılacağı gözləntisini ortaya çıxarır. Lakin Vaşinqton Talibanın nəzarətdən çıxmaması üçün Türkiyənin bu ölkədə olmasını istəyir. Türkiyə də Ağ Evin bu istəyini yaxşı bilir və Qarabağ məsələsi üçün istifadə edir. Yəni çox güman ki, həmin görüş zamanı Ərdoğan ABŞ-ın ardınca Türkiyənin Əfqanıstanda olması üçün güclü bir bazaya ehtiyacı olduğunu, bunun üçün də Qarabağ məsələsində dəstəyini istəyib. Ərdoğan türk qoşunlarının Azərbaycanda olmasının vacibliyini Baydenə həm də Əfqanıstana nəzarət etmək kimi təqdim edib. Bu mənada deyə bilərik ki, ermənilərin Rusiyadan gözləntiləri yersizdir. Çünki faktiki olaraq Ərdoğan Kremlin başını qatacaq Baydenlə görüşdən sonra Şuşaya gəlib. Hər halda Ərdoğan-Bayden görüşünün təfərrüatları Bayden-Putin görüşündə bəlli olacaq".

İsmayıl Qocayev



# Putin və Bayden razılığa gəlib

## "Nüvə müharibəsində qalib ola bilməz"

**Nüvə müharibəsində qalib ola bilməz. APA-nın Rusiya bürosunun məlumatına görə, bu barədə Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Co Bayden danışıqların yekunlarına dair birgə bəyanatda bildiriblər.**

"Rusiya Federasiyası və Amerika Birləşmiş Ştatları "nüvə müharibəsində qalib ola bilməz" prinsipinə sadiq qaldıqlarını dəstəkləyirlər", - deyə Rusiya-ABŞ sammitinin birgə bəyanatında vurğulanıb.

Qeyd edək ki, dünən İsveçrənin Cenevrə şəhərində Vladimir Putin və Co Bayden arasında danışıqlar keçirilib. 4,5 saatdan çox davam edən görüşdə Rusiya və ABŞ liderləri regional münaqişələr, kibertəhlükəsizlik, strateji sabitlik məsələlərini və ikitərəfli münasibətləri müzakirə ediblər.

*Görüşün yekunları ilə bağlı Vladimir Putin mətbuat konfransı keçirərək jurnalistlərin suallarını cavablandırıb.*

# Hər keçən gün Kürün səviyyəsi azalacaq

## Ölkənin əsas arteriyası göz qabağında quruyur



"Qarşıda qlobal quraqlıq və ciddi su çatışmazlığı gözlənilir"

**Son günlər Azərbaycanın ən böyük çayı olan və su təchizatında ölkənin əsas su mənbəyi sayılan Kür çayında suyun səviyyəsinin kəskin azalması haqda məlumatlara tez-tez rast gəlirik.**

Kürdə yaranmış vəziyyətin səbəbi kimi bir çox amillər göstərilir, lakin hələ də problem həll olunmayıb. Bəzi ekspertlərin fikirlərinə görə, yaxın illərdə Kürün Xəzər dənizinə qədər gəlib çıxmama riskləri mövcuddur. Nə baş verir? Və bunun qarşısını necə almaq olar?

**Mövzu ilə əlaqədar "Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı "Şərq"in suallarını cavablandırıb.** O vurğulayıb ki, bu problem bir neçə ildir ki, müşahidə olunur: "Keçən il bunun fəsadları daha ağır formada müşahidə olundu. Qeyd edim ki, getdikcə çayın həcminin azalması müşahidə olunacaq. Bununla da aran rayonlarında suvarma və içməli su problemi kəskinləşəcək. Bu da həm aqrar sektorda, həm də əhalinin su ilə təminatında problemləri artıracaq. Yaranmış vəziyyət antropogen təsirlərin güclənməsi ilə bağlıdır. Burada çayın keçdiyi hər üç ölkənin problemi var. Ekoloji mühitin məhv edilməsinin, çay suyundan məhdudiyyətsiz istifadənin, həmçinin qlobal istiləşmənin təsiri var. Məlumdur ki, Kür çayı suvarma suyu və içməli təchizatı su üzrə respublikanın əsas arteriyasıdır. Və bu arteriya göz qabağında quruyur. Bu vəziyyətə gətirib çıxaran şərait uzun onilliklər ərzində yaradılıb. İndi demək olar ki, gecdir. Biz jurnalistlər və ekoloqlar bu vəziyyətin qarşısını almaq üçün çox uzun illər həyəcan təbili çaldıq, lakin buna zərrə qədər də əhəmiyyət verilmədi. İndi bu prosesin qarşısını qısa müddətdə almaq imkan xaricindədir".

*Ekspert əlavə edib ki, ilk növbədə çalışıb bunun yaradacağı fəsadları kompensasiya etmək və alternativ su mənbələri formalaşdırmaq lazımdır:* "Bunun üçün dəfələrlə qeyd etdiyimiz kimi, çay ətrafında kiçik su anbarları yaradılmalı, ətraf ərazilərdə xeyli sayda artezian quyuları qazılmalı, dəniz kənarında su şirinləşdirici zavodlar tikilməli, sudan səmərəli istifadə təmin edilməlidir. Strateji planda isə çayın ətrafında fəaliyyət göstərən müxtəlif təyinatlı tikinti materialları sexləri ləğv edilməli, Kürün qolları olan kiçik çayların qurumasının qarşısını almaq üçün müvafiq tədbirlər görülməlidir. Həmçinin çayın keçdiyi Türkiyə və Gürcüstanla birgə lazımi tədbirlər görülməli, o cümlədən suyun bölüşdürülməsi limitləri tətbiq olunmalıdır".

E.Bayramlı diqqətə çatdırıb ki, qarşıda qlobal quraqlıq və ciddi su çatışmazlığı gözlənilir: "Beynəlxalq elmi mərkəzlər və aekoloq alimlər bu barədə çoxdandı SOS siqnalları verirlər. Biz isə buna demək olar ki, hazırlıqsız vəziyyətdəyik. Bu sahədə təcili böyük layihələrə başlanılmalıdır. Ölkə su ehtiyatının 30 faizinin cəmləşdiyi Qarabağın su ehtiyatlarından istifadə genişləndirilməli və ölkədə yaşıllıq sahələri kəskin artırılmalıdır".

Aynurə Pənahqızı

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxışı zamanı regional əməkdaşlıqdan və altılıq platformasından bəhs edib. Ərdoğan vurğulayıb ki, Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan və Gürcüstan platformasının yaradılması bölgə üçün çox faydalıdır. Onun sözlərinə görə, belə bir platformanın yaradılmasında məqsəd bölgədə sabitlik yaratmaq, düşmənçilikləri ortadan qaldırmaqdır:



# Gürcüstan üçün qərar vermək çətindir

## "Altılıq" platformasının işə düşməsi tərəflərin mövqeyindən asılı olacaq

"Tək Gürcüstanın bu mövzuda sualları var idi. Son Türkiyə səfərində gürcü Baş nazirlə danışdım və dedim ki, bu, Gürcüstanın da lehinə olacaq, gəlin, bu addımı ataq. Dedim ki, bizim Ermənistanla aramızda olan problemləri bilirsiniz. Amma bütün bunlara baxmayaraq, azərbaycanlı qardaşlarımızın problemlərinin aradan qalxmasını istəyirik. Eyni şəkildə sizin də Rusiya ilə problemlərinizi həll etməyiniz üçün bu platforma yardımçı olacaq. Dedi, çalışaq, yaxşı olar, dedim. Çünki bu bölgənin sülhə ehtiyacı var, bunu bacarmağımız lazımdır".

**Ərdoğanın "altılıq" platforması ilə bağlı dediklərini "Şərq"ə dəyərləndirən politoloq Elxan Şahinoğlu bildirib ki, bu ideya Türkiyə liderinə məxsusdur və müharibədən sonra bir neçə dəfə səsləndirib.** Analitikə görə, Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevin də dəstəyini alıb: "Ərdoğan Şuşada olduğu kimi Milli Məclisdəki çıxışında yenə Ermənistana çağırış edərək bu platformadan Ermənistanın da qazanclı çıxa biləcəyini dedi. Ermənistanın Zəngəzur dəhlizindən istifadə edərək Rusiyaya çıxış imkanı qazanacağını xatırladtı. Bundan başqa Türkiyənin Ermənistanla sərhədi aça biləcəyinə işarə etdi. Türkiyə lideri onu da xatırlatdı ki, sərhədin açılması birinci növbədə Ermənistanın xeyrinədir. İkincisi, Ərdoğan 3+3 formatında zəif bəndin heç də Ermənistan olmadığını, Gürcüstan olduğunu bildirdi və bu yanaşmasında haqlıdır. Rusiya Gürcüstanla 2008-ci il müharibəsindən sonra Abxaziya və Cənubi Osetiyanı faktiki ilhaq edib. İki dövlət arasında diplomatik əlaqələr yoxdur, dəmiryolu da işləmir. Buna baxmayaraq, Ərdoğan bugünlərdə Ankarada olan Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə təklif edib ki, onun ölkəsi də "altılıq platforması"na qoşulsun. Qaribaşvili düşünəcəyini desə də, Ərdoğan israrla təklifini xatırladıb".

E.Şahinoğlunun qənaətincə, əslində Ərdoğan bununla Gürcüstanla Rusiya arasında vasitəçilik təklif edib: "Gürcüstan üçün qərar vermək çətindir. Çünki Rusiya Abxaziya və Cənubi Osetiyadan vaz keçən deyil. Beləliklə, "altılıq formatı"nın işə düşməsi üçün birincisi, Ermənistan Azərbaycan və Türkiyənin ərazi bütövlüyünü tanımalı və Zəngəzur dəhlizinin açılmasına razılaşmalı, ikincisi, Gürcüstan Rusiya ilə nəqliyyat layihəsi üzərindən əməkdaşlığı qəbul etməlidir".

İsmayıl Qocayev



## ABŞ səfiri Azərbaycanı alqışladı

### Ölkəmiz Əfqanıstanda sülh və təhlükəsizliyin təmin olunmasında vacib rol oynayıb

**Azərbaycan Əfqanıstanda sülh və təhlükəsizliyin təmin olunmasında vacib rol oynayıb.**

Trend-in məlumatına görə, bunu ABŞ-ın Azərbaycandakı səfiri Li Litsenberger "Azərbaycanın Avro-atlantik sülh və təhlükəsizliyə töhfəsi" adlı beynəlxalq konfransda deyib.

O bildirib ki, Azərbaycan Əfqanıstanda sülhməramlı missiyaya öz sadiqliyini nümayiş etdirib:

"Azərbaycan sülhməramlıların Əfqanıstana göndərilməsi zamanı vacib nəqliyyat qovşağına çevrilmişdi. Əldə olunmuş uğurlara baxmayaraq, Azərbaycan sülhməramlı fəaliyyətində peşəkarlığını yüksəltməyə davam edir".

# Türkiyənin uğurlarından biz də yararlanacağıq

### Şuşa Bəyannaməsi iki ölkə arasında yeni əməkdaşlıq imkanları yaradacaq

Ötən gün Azərbaycan və Türkiyə Prezidentləri hər iki ölkə üçün tarixi əhəmiyyət daşıyacaq müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzaladılar. Təbii ki, bu sənəd iki ölkə arasında strateji əməkdaşlığı dərinləşdirməklə yanaşı iqtisadi münasibətlərin də genişlənməsinə imkan yaradacaq.

Şuşa bəyannaməsi ilə Azərbaycan dünyanın 17-ci ən böyük iqtisadiyyatına sahib olan Türkiyə ilə əməkdaşlıqdan daha çox faydalanacaq. Beləliklə, tərəflər ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini artıracaqlar.

**Bəyannamənin iqtisadi əhəmiyyəti barədə "Şərq"ə danışan Milli Məclisin deputatı Vüqar Bayramov deyib ki, Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasındakı strateji tərəfdaşlığı gücləndirməklə iqtisadi sahədə yeni əməkdaşlıq imkanları yaradacaq.** Deputat qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın hər iki ölkə üçün tarixi əhəmiyyət daşıyacaq müttəfiqlik münasibətləri haqqında imzaladıqları Şuşa Bəyannaməsi ölkələrimizin strateji əməkdaşlığını dərinləşdirməklə yanaşı, iqtisadi münasibətlərin də genişlənməsinə imkan yaradacaq: "Bəyannamənin ən spesifik cəhətlərindən biri də milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılmasıdır. Bu, ölkələrin iqtisadi və ticarət şaxələndirilməsi ilə bağlı biri-birlərinə qarşılıqlı dəstək olacağı anlamına gəlir. Ticari şaxələnmənin hər iki ölkə üçün xüsusi əhəmiyyət daşıdığını nəzərə alsaq, bu sahədə əməkdaşlıq iqtisadi inkişafın dayanıqlığı baxımından da vacib hesab olunur".

*V.Bayramov vurğulayıb ki, iki qardaş ölkənin ticarət dövriyyəsində artım gözlənilir:* "Digər mühüm məqam malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsidir. Bu il martın 1-dən Azərbaycan ilə Türkiyə arasında Preferensial Ticarət Sazişi qüvvəyə minib. Saziş 15 mal qrupunu əhatə edir. Bu saziş nəticəsində iki qardaş ölkə arasında ticarət dövriyyəsinin artacağı gözlənilir. Bu o deməkdir ki, artıq bu sahədə real addımlar atılmaqdadır. Qardaş ölkələr növbəti 3 il ərzində ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılması ilə bağlı hədəf müəyyənləşdiriblər. Şuşa Bəyannaməsində nəzərdə tutulan tədbirlər bu hədəfə nail olmaq üçün yeni imkanlar yaradacaq. Qeyd edək ki, 4,5 milyard dollarlıq ticarət dövriyyəsi ilə Türkiyə İtaliyadan sonra Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsi 4 milyard 405 milyon dollar idi. Bütövlükdə son illər Azərbaycan ilə Türkiyə arasındakı ticari əlaqələrdə artan tendensiya müşahidə olunub. Belə ki, 2019-cu ildə ticarət dövriyyəsi əvvəlki il ilə müqayisədə 33 faiz 2017-ci il ilə müqayisədə isə 73 faiz artıb. Belə ki, ümumi ticarət dövriyyəsi 2018-ci ildə 3 milyard 403 milyon dollar, 2017-ci ildə isə 2 milyard 667 milyon olub. 2017-ci ildən etibarən Azərbaycan Türkiyə ilə xarici ticarət dövriyyəsində hər zaman müsbət saldoya malik olub. 2019-cu ildə bu saldo rekord şəkildə artaraq 1 milyard 200 milyon dollara çatıb".



Deputat vurğulayıb ki, Zəngəzur dəhlizi ölkəmizin strateji əhəmiyyətini artıracaq: "Sənəddə Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf edirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi də nəzərdə tutulur. Ötən il Türkiyə Azərbaycandan 9,58 milyard kubmetrdən çox təbii qaz idxal edib ki, bu da 2018-ci ilin eyni dövrü ilə müqayisədə 27,2 faiz çoxdur. Bu isə iki ölkə arasında enerji sahəsində əməkdaşlığın artıq güclənməsindən xəbər verir. Vacib istiqamətlərdən biri də məhz intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqidir. Zəngəzur dəhlizi 1,1 trilyon dollardan çox nominal ümumi daxili məhsulu olan türkdilli ölkələri iqtisadi baxımdan birləşdirməklə yanaşı, ölkəmizin starteji əhəmiyyətini də artıracaq. Dəhliz kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcək. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də, "Şərq-Qərb" nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq. Dəhliz Azərbaycanın öz eksklavı olan Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri də gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyətini daha da artıracaq. Ən əsası, türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsilə birləşəcək. Bütövlükdə, Şuşa Bəyannaməsi iki qardaş ölkə arasındakı strateji tərəfdaşlığı gücləndirməklə iqtisadi sahədə yeni əməkdaşlıq imkanları yaradacaq".

**Aynurə Pənahqızı**

# Son 30 ilin ən mühüm sənədi imzalanıb

### Yeni müqavilədə Azərbaycanın ərazi bütövlüyünə təminat verilir

**"Şuşa bəyannaməsi" imzalanarkən dövlət başçısı İlham Əliyev bu sənədin tarixi Qars müqaviləsinə istinad etdiyini bildirdi:**

"Tarixi Qars müqaviləsi yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır".



**BDU-nun Jurnalistika fakültəsinin professoru, tarixçi-alim Nəsiman Yaqublu hər iki müqavilənin məzmunundakı oxşarlıq barədə "Şərq"ə danışıb:** "Azərbaycanın Türkiyə ilə əlaqələri 1918-ci ildən başlayır. İyunun 4-də tərəflər arasında imzalanan Batum müqaviləsinə görə Nuru Paşanın rəhbərliyi altında Qafqaz İslam Ordusu Azərbaycana gəldi. Beləliklə, torpaqlarımızın ərazi bütövlüyü təmin olundu və Türkiyə ərazimizin bütövlüyünün təminatçısı rolunda çıxış etməyə başladı. Ardınca imzalanan Qars müqaviləsi isə bir növ bu sənədin davamı idi. Şərtlərə görə, Osmanlı dövləti Naxçıvana nəzarət edirdi. Həmçinin Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarına hüquqi baxımdan son qoyulurdu. Növbəti bir müddəaya görə isə Qars, Ərdəhan və Arazboyu digər torpaqlar Türkiyənin nəzarətinə keçirdi".

*Professor, həmçinin "Şuşa bəyanannaməsi"nin əhəmiyyətindən danışıb:* "Bu müqavilə çox mühüm əhəmiyyətə malikdir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyünə təminat verilir. Silahlı qüvvələrimiz müasirləşir, komplektləşdirilir. Fikrimcə, "Şuşa bəyannaməsi" Azərbaycanın ərazi bütövlüyü və təhlükəsizliyi baxımından son otuz ilin ən mühüm sənədidir".

**Kənan**

## Xankəndiyə qayıdacağımız tarix açıqlandı

### "Quruculuq işləri görəcək, otellər tikəcəyik"



**Şuşada Prezident İlham Əliyevlə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında maraqlı dialoq olub.** Dövlət başçımız əli ilə Xankəndini göstərib və Ərdoğanın "Otel ordadır" sualına əminliklə "Orda da olacaq" deyib. Əlbəttə, bu, həm də siyasi mesajdır.

**Millət vəkili, Xalq şairi Sabir Rüstəmxamlı siyasi ismarıc barədə "Şərq"ə danışıb:** "Dünya bilir ki, Qarabağın digər hissələri kimi Xankəndi də Azərbaycan torpağıdır. Otuz ildir orada ermənilər yaşayırlar. İndi sülhməramlıların fəaliyyəti vəziyyəti bir az da gəginləşdirir. Amma onların xidmət dövrü bitəndən sonra biz Xankəndiyə qayıdacağıq. Torpaqlarımızı kimsəyə verməmişik! Odur ki, dövlət başçısının dediyi kimi, hazırda ermənilərin yaşadığı digər torpaqlarımızda, o cümlədən Xankəndinə nə vaxtsa mütləq quruculuq işləri görəcək, otellər tikəcəyik. Eynilə Şuşada olduğu kimi".

**Kənan**

# "Şuşa Bəyannaməsi Ermənistandakı revanşistlərə çox ağır zərbədir"

## Tofiq Zülfüqarov: "Əsas məsələlərdən biri odur ki, artıq Türkiyə Azərbaycanın müttəfiqi kimi yanımızdadır"



15 iyun 2021-ci ildə Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında "Şuşa Bəyannaməsi" adlı tarixi sənəd imzalandı. Sənədi iki türk lider - Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyiğ Ərdoğan imzalayıblar. 11 səhifəlik sənəd Qars müqaviləsindən sonra Azərbaycan və Türkiyə arasında münasibətlərin yeni mərhələdə inkişafını əks etdirən ən böyük razılaşma kimi tarixə düşdü.

Liderlər Şuşadan güc, siyasi birlik və əsl qardaşlıq mesajı verdilər. Şuşa Bəyannaməsinə əsasən, siyasi, iqtisadi, mədəni, hərbi, milli təhlükəsizlik, media və diaspor sahəsində birgə əməkdaşlıq ən yüksək səviyyəyə çatdırılacaq. Həmçinin, tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, təhlükəsizliyinə qarşı təhdid olduğu təqdirdə tərəflər bir-birinə yardım göstərəcək.

**Tarixi Şuşa Bəyannaməsi ilə bağlı "Şərq"in suallarını cavablandıran sabiq xarici işlər naziri Tofiq Zülfüqarov hesab edir ki, Türkiyə dövləti ilə Azərbaycanın birgə fəaliyyəti, əməkdaşlığı, tərəfdaşlığı, dostluğu, qardaşlığı hər iki dövlətin inkişafı və beynəlxalq aləmdə nüfuzunun güclənməsi üçün çox mühüm amildir...**

**- Tofiq müəllim, tarixi əhəmiyyət kəsb edən müqaviləni və sənəddə yer alan məqamları necə dəyərləndirirsiniz?**

- İki ölkə arasında imzalanan sənədlərin sayı 300-dən çoxdur. İllər ərzində Türkiyə-Azərbaycan arasında müxtəlif sazişlər bağlanıb. Təbii olaraq, tərəflər arasında diqqət çəkən əsas məqamlardan biri hərbi əməkdaşlıqdır. Amma qardaş ölkə ilə hərbi sahədə ortaq fəaliyyətimiz Şuşadan başlamır. İkili əməkdaşlığın tarixi illər öncəyə dayanır. Şuşa Bəyannaməsi bir növ müəyyən dövrün yekunlarına həsr olunmuşdu. Əldə olunan nailiyyətlər əsasında ortaya çıxmış bir sənəd idi. Daha doğrusu, Şuşa müqaviləsi gələcək əməkdaşlığa yön verən və iki ölkənin bir-birinə yaxınlıq istiqamətlərini göstərən razılaşmadır. Çox böyük və vacib sənəddir. Əsas məsələlərdən biri odur ki, artıq Türkiyə Azərbaycanın müttəfiqi kimi yanımızdadır. Eyni zamanda Azərbaycan da qardaş Türkiyə ilə bərabərdir. Böyük nüfuza malik, geniş hərbi imkanlara sahib olan NATO üzvü Türkiyə Azərbaycanın təhlükəsizliyinin təminatçısıdır. Bizim üçün bu məqam çox vacibdir. Tərəflərdən biri güclü, nüfuzlu Türkiyə, digəri isə 44 günlük Vətən savaşının qalibi, müzəffər Azərbaycandır. Dövlətimiz öz gücü hesabına torpaqlarını işğaldan azad etməklə, bunun əsasında müttəfiqlik sənədinə imza atdı.

**- Şuşa Bəyannaməsində tarixi Qars müqaviləsinə istinadın önəmi nədir?**

- Qars müqaviləsinə istinad mühümdür. Türkiyə hələ 1921-ci ildə Naxçıvanın indiki statusunu, yəni birbaşa Azərbaycana məxsus olduğunu bəyan edib və bunun təminatçısı olub. Qars müqaviləsində Rusiya tərəfinin də imzası var. Türkiyə Qars müqaviləsi sayəsində, yəni Naxçıvan öhdəliyi ilə NATO-ya üzv olmaq şansı əldə edib. Qars müqaviləsinə əsasən, Türkiyənin müttəfiqlik təminatı sadəcə Naxçıvana aid idisə, indiki mərhələdə bu təminat bütünlüklə Azərbaycana aiddir. Bu da çox vacib elementdir.

**- Bəzi ekspertlər bu təminatın Naxçıvandan Qarabağa daşınması kimi şərh edirlər...**

- Yox, mən elə deməzdim. Şuşa Bəyannaməsinin şərtləri sadəcə Qarabağa deyil, bütöv Azərbaycana şamil edilir. Qarabağ siyasi yox, coğrafi məfhumdur. Sənəddə konkret bölgə qeyd olunmayıb. Müqavilənin harada imzalanmasından asılı olmayaraq, bütöv Azərbaycandan söhbət gedir. Yəni Türkiyə Azərbaycanın hansısa bölgəsinin deyil, ümumilikdə ölkəmizin təminatçısı kimi çıxış edir.

**- Müqavilə Bakıda da imzalana bilərdi. Mərasimin məhz Şuşada təşkil edilməsinin xüsusi səbəbi varmı?**

- Burada simvolik məqamlar var. Şuşa Bəyannaməsinin 15 iyun Milli Qurtuluş günündə imzalanması, sənədlərə Şuşada qol çəkilməsi təsadüfi deyil. Müqavilənin Şuşada imzalanması qələbə gününün davamı kimi qiymətləndirilə bilər. Həm Azərbaycan Prezidenti, həm də Türkiyə rəhbəri işğaldan azad olunmuş Şuşadan vacib mesajlar verdilər. Türkiyə lideri Ərdoğan 3+3 formatı ilə bağlı fikirlər səsləndirdi, regional əməkdaşlıqdan danışdı. Dövlət başçısı İlham Əliyev də öz çıxışında sülhə çağırış etdi. Biz Şuşa Bəyannaməsini sadəcə tərəfdaşlıq və hərbi müttəfiqlik kimi görmürük, eyni zamanda gələcəyə baxış kimi qiymətləndiririk. Azərbaycan və Türkiyə öz birliklərini qeyd edərkən həm də bölgə dövlətlərinə və xalqlarına çağırış edirlər ki, sülh və əmin-amanlığı bərpa etmək ən ümdə şərtdir, zərurətdir. Düşmənçilik stereotiplərindən xilas olmaq lazımdır. Ermənistandan səslənən revanşist bəyanatlara son qoyulmalıdır. Ermənilər ağıllarını başlarına yığaraq özlərini real itkilərdən, növbəti faciələrdən uzaq tutmalıdır. Bu cür mesajların məhz Şuşadan səslənməsinin böyük əhəmiyyəti var.

**- Gözlənildiyi kimi Ermənistandakı bəzi dairələr Şuşa müqaviləsinə qısqanclıqla yanaşdılar. Türkiyə və Azərbaycanın ünvanına hədyanlar söylədilər...**

- Şuşa Bəyannaməsi Ermənistandakı revanşist güclərə çox ağır zərbədir. Qeyd etmək lazımdır ki, Türkiyə Prezidenti Ərdoğan Şuşaya birbaşa Brüsseldən, NATO-nun sammitindən gəldi. Reallıq odur ki, ABŞ və Avropa ölkələri tərəfindən Türkiyə ciddi şəkildə dəstəklənir. Regional proseslərdə Türkiyənin rolu və mövqeyi Qərb tərəfindən yüksək qiymətləndirilir. Çünki Türkiyə Cənubi Qafqazda həm də NATO təmsilçisi, Qərbin siyasətini bölgədə həyata keçirən dövlət kimi xarakterizə olunur. Bundan başqa formalaşan Türkiyə-Rusiya tandeminə də hansısa dəyişikliklərin, nüansların əlavə edilməsi mümkündür. Ermənilər də yeni reallığı yaxşı başa düşürlər. Əvvəlki ümidləri Rusiya idi. Ancaq indi Rusiya Türkiyə və Azərbaycanla əməkdaşlığa daha çox önəm verir. Ermənistanın Qərbə də ümidi çox idi. Lakin NATO sammitindən sonra Türkiyə daha güclü tərəfdaş kimi regiona qayıtdı. Ermənilər regionda baş verənləri diqqətlə izləyirlər. Uzun illər erməni hökumətləri xalqı aldadıb, başlarını siyasi illüziyalarla qatıblar. Xalq bunların yalan və əsassız olduğunu, böhrana apardığını görür.

*"Reallıq odur ki, ABŞ və Avropa ölkələri tərəfindən Türkiyə ciddi şəkildə dəstəklənir"*

**- Yəni Ermənistanda fərqli düşünənlər də var?**

- Əlbəttə. Ermənistanda normal fikir səsləndirənlər var. Məsələn, münaqişənin formalaşmasında və davam etməsində "böyük rol" oynamış Levon Ter-Petrosyan deyib ki, Ermənistan yeni reallıqları başa düşməli və qəbul etməlidir. O bildirib ki, artıq dünya Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır. Görünür, hamıya çoxdan aydın olan bu həqiqət tədricən ermənilərin siyasi elitasına da yol açıb. Sözsüz, proses çətindir və heç kim asan keçəcəyini demir. Amma Azərbaycanın Türkiyə ilə ortaq fəaliyyəti regiondakı prosesləri daha da sürətləndirəcək. Ermənilər öz cəfəng iddialarından xilas olmalıdır. Çünki heç vaxt Azərbaycan ərazilərini zəbt edə bilməyəcəklər.

**- Bəyannamənin imzalanma mərasimində dövlət başçısı İlham Əliyev hərbi müttəfiqliklə bərabər nəqliyyat dəhlizi məsələsinə də xüsusi diqqət çəkdi. Ölkə rəhbərinin Şuşadan Zəngəzur dəhlizi mesajı nə qədər mühümdür?**

- Zəngəzur dəhlizi 10 noyabr üçtərəfli sazişinin əsas şərtlərindəndir. Üçtərəfli Bəyanat isə Ermənistanın kapitulyasiya sənədinə imza atması deməkdir. Saziş Rusiyanın təşəbbüsü ilə gündəmə gəlib və Ermənistanın tamamilə darmadağın edilməsinin qarşısını alıb. Ona görə də İrəvan hökuməti məğlub tərəf kimi sazişdəki bütün şərtlərə qeyd-şərtsiz əməl etməlidir. Əgər ermənilər bəyanatın hansısa bəndindən imtina etsələr, Azərbaycan da digər bəndlərdən imtina edə bilər. Vaxtı ilə sazişə qiymət verən Putin deyib ki, Ermənistanın üçtərəfli müqavilənin şərtlərindən boyun qaçırması onlar üçün fəlakət deməkdir. Prezident tərəfindən Şuşadan səslənən Zəngəzur dəhlizi mesajı Ermənistana növbəti xəbərdarlıq idi. Ermənistan rəhbərliyinə və xüsusən revanşist siyasi dairələrə mesaj verilir ki, ağıllarını başlarına yığsınlar və öhdəliklərinə əməl etsinlər. Haşiyə çıxaraq bir məqamı da qeyd etmək istərdim. Ötən gün dünyanın müxtəlif ölkələrində yayımlanan nüfuzlu "RTVi" kanalına müsahibə verdim. İsrailə məxsus kanalın redaksiyası həm Təl-Əvivdə, həm Moskvada, həm də Nyu-Yorkdadır. Maraqlı da olsa kanalın indiki rəhbəri İsrailyan soyadlı bir ermənidir. Müsahibəmi yutub kanalına yerləşdiriblər, feysbuk səhifəmdə paylaşmışam. Türkiyə Prezidenti Ərdoğanın Şuşa səfəri, imzalanan sənəd barədə reportaj var. Ermənilər şərh bölməsinə hücum çəkiblər, Türkiyə və Azərbaycan əleyhinə ağıllarına gələni yazırlar. Məncə, şərh bölməsində ermənilərin cavabını versək, yaxşı olar...

**İsmayıl Qocayev**

# Putin-Bayden görüşündə Aleksey Navalnı məsələsinə toxunulub



**ABŞ Prezidenti Co Bayden rusiyalı həmkarı Vladimir Putinlə görüşdə rusiyalı müxalif bloger Aleksey Navalnı məsələsini qaldırıb.**

APA-nın Rusiya bürosunun məlumatına görə, bu barədə Rusiya Prezidenti Vladimir Putin Co Baydenlə danışıqların yekunlarına dair mətbuat konfransında bildirib.

"Prezident Bayden insan hüquqları mövzusuna toxundu. Bəli, biz bu barədə Baydenin təşəbbüsü ilə danışdıq", - deyə Rusiya prezidenti Aleksey Navalnı məsələsinin müzakirə olunub-olunmaması barədə suala cavab verərkən deyib.

A.Navalnı barədə danışan Rusiya prezidenti onun öz qanunlarını pozduğunu, həbs olunacağını bilə-bilə Rusiyaya qayıtdığını vurğulayıb: "Bu yoldaş qanunun tələbini bilərəkdən geri çevirərək xaricə müalicəyə gedib. Xəstəxanadan çıxan kimi isə axtarışa verilib. Bunu bilə-bilə o gəlib. Hesab edirəm ki, o, saxlanılması üçün bilərəkdən buna gedib. İstədiyini edib. Ona görə də burada nədən danışmaq olar ki?!".

Vladimir Putin ABŞ-ın Quantanamo həbsxanasının hələ də fəaliyyət göstərdiyini, bunun Amerika qanunlarına, beynəlxalq hüquqa uyğun olmadığını xatırladıb.

# "NATO-da da Azərbaycanın haqlı tərəf olduğu legitimlik qazandı"



## Turab Rzayev: "Bundan sonra ərazilərimizə müdaxilə etmək istəyənlər daha qarşılarında Türkiyəni görəcək"

*"Seçkilərdən sonra məsələ həllini tapacaq. Ya Paşinyan vədinə əməl edəcək, ya da hakimiyyətə gələcək Rusiyapərəst bir siyasətçi Zəngəzur dəhlizinin açılmasına razılıq verəcək"*

**Şuşada Prezident İlham Əliyevlə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında imzalanan sənəd mühüm tarixi əhəmiyyət kəsb edir.**

"Şuşa bəyannaməsi"nin şərtlərinə görə, ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlər qarşılıqlı əlaqələndiriləcək. Həmçinin Zəngəzur dəhlizinin açılması, qarşılıqlı əməkdaşlıq və hərbi yardım məsələləri və digər məqamlar da müqavilədə əksini tapıb. Bir sözlə, bu sənəd həm də Azərbaycan-Türkiyə birliyini, qardaşlığını dünyaya göstərdi.

**"Şərq" olaraq siyasi analitik Turab Rzayevlə müqavilənin əhəmiyyətini müzakirə etdik:**

**- Bəyannamənin şərtləri bölgədəki geosiyasi mənzərəyə necə təsir edəcək?**

- Müqavilənin NATO sammitindən bir gün sonra imzalanması təsadüfi deyil. Çoxları sammitdə Ankaranın cəzalanacağını gözləyirdi. Əslində bunun üçün əsas da var idi. Amma tərəflər arasında görüş problemsiz keçdi. Belə məlum oldu ki, ABŞ-ın Yaxın Şərqdə, Orta Asiyada, Əfqanıstanda və başqa yerlərdə əsas dayaq nöqtəsi yenə də Türkiyədir. Beləliklə, qardaş ölkənin regiondakı nüfuzu artacaq. Bu məsələ NATO-da artıq müzakirə olunub. Eyni zamanda Qarabağ məsələsində Azərbaycanın haqlı tərəf olduğu beynəlxalq legitimlik qazandı, qələbəmiz təsdiqləndi.

**- Digər dövlətlər tarixi hadisədən hansı dərsi çıxarmalıdırlar?**

- Müqavilə kiminsə, o cümlədən Rusiyanın, İranın və ya Ermənistanın əleyhinə deyil. Sadəcə Azərbaycanın ərazi bütövlüyünə müdaxilə etmək istəyən qüvvə bundan sonra qarşısında Türkiyəni görəcək. Düzdür, indiyədək bizim aramızda qarşılıqlı əməkdaşlığa dair sazişlər imzalanmışdı. Amma "Şuşa bəyanatı" ilə təsdiqləndi ki, torpaqlarımıza hücum olarsa, Türkiyə bizi qeyd-şərtsiz dəstəkləyəcək.

**- Zəngəzur dəhlizinin taleyi barədə nə düşünürsünüz?**

- Bu dəhlizlə Azərbaycan Türkiyəyə, Naxçıvana, Rusiya Türkiyəyə birbaşa yol əldə edir. Eyni zamanda Zəngəzur dəhlizi vasitəsilə Şərqlə Qərb birləşir. Həmçinin birbaşa dəmiryolu çəkilir. Əlbəttə, hər kəs, o cümlədən də şimal qonşumuz dəhlizin açılmasında maraqlıdır. Çünki gələcəkdə Ankara və Moskva biri-birilərinə hərbi yardım da edə bilərlər.

**- Altılıq platformasının yaradılması nə qədər realdır?**

- Ərdoğan aralarında müəyyən ziddiyətlər olmasına rəğmən, Rusiya və İranı əməkdaşlığa dəvət edir. Altılıq platforması hər qonşu dövlət üçün əlverişlidir. Sadəcə, Ermənistan mane ola bilər. Amma seçkilərdən sonra məsələ həllini tapacaq. Ya Paşinyan vədinə əməl edəcək, ya da hakimiyyətə gələcək Rusiyapərəst bir siyasətçi Zəngəzur dəhlizinin açılmasına razılıq verəcək.

**Kənan Novruzov**

## Bəyannamədə Zəngəzurun adı əks olundu

"Azərbaycan tarixi torpağına qayıdışını beynəlxalq müstəvidə legitimləşdirə bilər"



**"Zəngəzur dəhlizi ifadəsinin Şuşa Bəyannaməsinə daxil edilməsinin strateji hədəfləri var".**

Bu barədə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, rəsmi sənəddə bu ifadənin əks olunması məsələni yenidən aktuallaşdırıb: "Üçtərəfli razılaşmaların regionda kommunikasiyanın bərpası ilə bağlı bəndlərində nə dəhliz, nə də Zəngəzur ifadəsi var. Ermənistan da bu ifadənin olmamasına istinad edirdi.

Prezident İlham Əliyev martın 6-da cəmiyyətdə "Naxçıvan dəhlizi" adlandırılan, Naxçıvanı Azərbaycanla birləşdirən nəqliyyat kommunikasiyasını Zəngəzur dəhlizi elan etdi. May ayında Türkiyənin Nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlu qəbul edərkən, bu kommunikasiya xəttinin beynəlxalq müstəvidə də Zəngəzur dəhlizi kimi təsbit edildiyini açıqladı. Şuşa Bəyannaməsinə daxil edilməklə, Zəngəzur dəhlizi ifadəsi ilk dəfə rəsmi sənəddə əksini tapmış oldu".

**A.Nərimanlının sözlərinə görə, bu məqam Zəngəzura qayıdış strategiyasında əhəmiyyətli gedişdir:** "Bununla Zəngəzur dəhlizi ifadəsi geosiyasi leksikona daxil edilir. Zəngəzurun Azərbaycanın tarixi torpağı olması faktı beynəlxalq müstəvidə aktuallaşır. Geosiyasi leksikonda Zəngəzur dəhlizi ifadəsinin səslənməsi Zəngəzurun, həm də onun tarixinin dünyanın gündəmində qalmasına imkan yaradır. Azərbaycan bu yolla tarixi torpağı Zəngəzura qayıdışını beynəlxalq müstəvidə legitimləşdirə bilər".

**İsmayıl**

# Tək ağıllı odur...

## Petrosyan artıq anlayır ki, Azərbaycan güclü tərəfdir

Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan ölkəsinin İctimai Televiziyasının efirində çıxışı zamanı bir sıra açıqlamalar verib. Sabiq ölkə rəhbəri vurğulayıb ki, işğal olunmuş ərazilərin daimi olaraq saxlanıla biləcəyinə dair illüziyalar absurd idi. Onun sözlərinə görə, indi hər şey daha mürəkkəbdir:

"Əvvəllər qarşılıqlı güzəştə getmək imkanımız var idi, indi yox. Bu fürsəti itirdik. Bizim heç bir şeyimiz yoxdur, Ermənistanın həlledici səsi yoxdur". Petrosyan Robert Koçaryanın Şuşa və Hadrutun geri qaytarılması ilə bağlı verdiyi vədləri təhlükəli hesab etdiyini bildirib: "Bu, problemlərə səbəb ola bilər. İndi orada Azərbaycan qoşunları var, bu, yalnız müharibə ilə mümkündür. Yəni Robert Koçaryan yeni müharibə vəd edir. Azərbaycanı getməyə kim məcbur edəcək? Bütün dünya Qarabağı Azərbaycanın bir hissəsi hesab edir. Heç kim Azərbaycanı qınamadı. Dünyanın qanunu budur. Dağlıq Qarabağın Azərbaycanın bir hissəsi olmasına razı olmaq məcburiyyətində qalacağıq. Heç bir şey bizdən asılı deyil, hər şey bitdi". Levon Ter-Petrosyan işğal dövründə Ermənistana rəhbərlik edən şəxs olsa da, zaman-zaman "Qarabağ klanı"nın rəhbərlərindən fərqli, bir qədər də real açıqlamalarla gündəmə gəlib.

**Seçki öncəsi sabiq prezidentin etirafını "Şərq"ə analiz edən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib ki, Petrosyan yaxşı başa düşür ki, Ermənistanın daxili vəziyyəti ağırdır, xarici vəziyyəti isə daha ağırdır.** Analitikin sözlərinə görə, əgər Ermənistanda bir az ağıllı siyasətçi axtarsaq, tapacağımız yeganə şəxs Petrosyan olar: "Başqaları ilə müqayisədə Petrosyanı dövlət adamı kimi dəyərləndirmək mümkündür. Digər loyal siyasətçilər Rusiya tərəfindən 1997-ci ildə parlament hadisələrində öldürüldü. Düzdür, Qarabağ və ətraf rayonlar Petrosyanın hakimiyyəti dövründə işğal olunub. Amma Petrosyan illər keçdikcə gördü ki, proseslər heç də onların düşündüyü kimi cərəyan etmir. 1993-cü ildən sonrakı proseslər, dövlətin təmərküzləşməsi, mərkəzi hakimiyyətin möhkəmlənməsi, ordunun güclənməsi Petrosyanı anlamağa məcbur etdi ki, Azərbaycan artıq güclü tərəfdir. Eksprezident 1997-ci ildə istefa verərkən bir məqaləsi yayıldı. Orada vurğulamışdı ki, razılaşmadıqları mərhələli həll variantı onlara baha başa gələcək və bir müddət sonra ermənilərə heç bir güzəşt olmayacaq. Həmin məqalədə yer alan fikirlərdən görünürdü ki, Petrosyan reallıqları dərk etməyə başlamışdı. Azərbaycan gec-tez öz torpaqlarını işğaldan azad etməliydi".



*"Keçmiş prezident "Qarabağ klanı"na zərbə vurmağa çalışır"*

**Siyasi şərhçinin fikrincə, Ermənistandakı əksər bəyanatlar qarşıdan gələn parlament seçkisinə hesablanıb:** "Petrosyanın erməni cəmiyyətində kifayət qədər dəstəkçisi var və onun fikirləri ictimai rəydə müəyyən dəyişikliyə səbəb olur. Ona görə Petrosyanın bu cür çıxışı dolayı yolla həm də seçki prosesinə görədir. O, məsələyə yanaşması ilə "Qarabağ klanı"na zərbə vurmağa çalışır. Hakimiyyətə qərbyönlü qüvvələrin gəlməsi üçün fəaliyyət göstərir. Lakin Petrosyanın əvvəlki bəyanatları da Koçaryan-Sarksiyan cütlüyünün illuziyalarından fərqli olub. Koçaryanın açıqlamalarından onun psixoloji problemlərinin olduğu görünür. Çünki iki-üç ay bundan öncə başqa ifadələr səsləndirmişdi. Demişdi ki, "ağlı başında olan adam revanşist arzularla yaşamaz". Ötən gün isə sərsəmcə iddia edir ki, guya, Şuşa və Hadrutu "geri qaytaracaqlar". Ya əqli çatışmazlığı var, ya da seçki ilə bağlı populizmlə məşğuldur. Ancaq erməni cəmiyyəti Koçaryana çox inanmır. Sadəcə, rusmeyilli kəsimin "Qarabağ klanı"nın rəhbərlərinə inamı qalıb. Belə siyasətçilərə baxmış Petrosyan kimi adamlar ən azından mövcud durumu düzgün təhlil etməyi bacarırlar. Petrosyan münaqişədən öncə dəfələrlə Azərbaycanla danışıqlara getməyin və 7 rayonun qeyd-şərtsiz qaytarılmasının zəruriliyini vurğulayıb. Ancaq o da bəyan edirdi ki, "Dağlıq Qarabağ" müzakirə predmeti deyildi və s. Artıq tamamilə yeni reallıqlar formalaşıb. Beynəlxalq aləmlə yanaşı Rusiya və Ermənistan daxilində də böyük əksəriyyət Qarabağın Azərbaycan torpağı olduğunu qəbul etməyə başlayıblar. İstənilən halda Petrosyan kimi adamların etirafları erməni cəmiyyətində müəyyən kəsimlər üçün də təsirli olur. Xüsusən, Şuşa Bəyannaməsindən sonra revanşist duyğularla yaşamaq minalı əraziyə girmək kimi bir şeydir".

**İsmayıl Qocayev**

# İranda prezident seçkilərində 5 namizəd mübarizə aparacaq

## *“İndiki şərtlərdə islahatçılar mühafizəkar qanad qarşısında xeyli zəifdirlər”*

Bu həftə qonşu ölkə olan İranda prezident seçkiləri keçiriləcək. Seçkilərdə iştirakına icazə verilmiş yeddi namizəddən biri olan Möhsil Mehralizadə namizədliyini artıq geri götürüb. Bu barədə İRNA xəbər agentliyi məlumat yayıb.



Bununla da İranda iyunun 18-də prezidentlik uğrunda yarışanların sayı 6 olub. Qeyd edək ki, seçkidən əvvəl yüzlərlə namizəd qeydiyyata alınsa da, seçki prosesinə nəzarət edən qüdrətli Qəyyumlar Şurası yalnız yeddi nəfəri təsdiqləmişdi. Onlardan beşi şərti olaraq ”mühafizəkar”, iki nəfər isə ”mərkəzçi” və ”islahatçı” sayılır. Hazırkı Prezident Həsən Ruhani isə bu vəzifədə maksimum iki dövr müddətini başa vurduğu üçün üçüncü dəfə öz namizədliyini irəli sürə bilməz. Seçicilər arasında mühafizəkar namizəd İbrahim Rəisi rəqibləri arasında lider sayılır. Bir çoxları hesab edir ki, o, nəinki Prezident Ruhanini, hətta gələcəkdə Ali Dini Rəhbər Ayətullah Əli Xameneyini də əvəzləyə bilər. İbrahim Rəisinin rəqiblərindən heç biri onun qədər nüfuzlu fiqur sayılmır. Seçki kampaniyası gedişatında cənab Rəisi iqtisadi tənəzzüllə bağlı hökm sürən çarəsizlik və naümidliyə son qoyacağını vəd edib. Digər namizəd isə 60 yaşlı Möhsün Rezaidir. O, 1981-ci ildə İran İslam İnqilabı Keşikçiləri Korpusunun (İİKK) komandiri təyin olunub və 1980-88-ci illərdə İran-İraq müharibəsi zamanı İİKK qüvvələrinə rəhbərlik edib. Möhsün Rezai üç dəfə prezidentlik uğrunda mübarizəyə qatılıb. Bir çoxları onu ”daimi namizəd” adlandırır. Namizədlərdən biri isə 2007-2013-cü illərdə, Mahmud Əhmədinejadın prezidentliyi vaxtı xarici işlər nazirinin müavini vəzifəsində işləmiş Səid Cəlilidir. Əbdülnasir Həmmati Möhsün Mehralizadədən başqa seçkilərdə iştirakına icazə verilən yeganə qeyri-mühafizəkar namizəddir. O, müxtəlif administrasiyalar dövründə mühüm vəzifələrə təyin olub. Bu, onun fərqli siyasi qütblərə mənsub qüvvələrlə işləmək qabiliyyətinin sübutu kimi qəbul edilir.

**Mövzu ilə bağlı siyasi-şərhçi Kənan Rövşənoğlu ”Şərq”ə danışıb. O vurğulayıb ki, yeddi namizəddən ikisi - islahatçı Möhsil Mehralizadə və mühafizəkar Əli Rza Zakani namizədliyini geri götürüb:** ”Zakani namizədliyini İbrahim Rəisinin xeyrinə geri çəkdiyini bildirib. Hazırda 5 namizəd var. Düzdür, seçkilərə daha bir nəfərin namizədliyini geri çəkilməsi mümkündür. Amma böyük ehtimalla 5 nəfərlə seçkiyə gedəcəklər. Əsas namizədlər mühafizəkar qanaddan İbrahim Rəisi və Səid Cəlilidir. İslahat qanadını isə yeganə namizəd Əbdülnasir Hemmati təmsil edir. Səid Cəlili daha xarizmatik və siyasət təcrübəsi olan biri kimi xarakterizə olunsa da, mühafizəkar camiənin əsas namizədi İbrahim Rəisidir. İslahatçılar isə Hemmatini seçdirməyə çalışacaqlar”.

**Analitik qeyd edib ki, ancaq indiki şərtlərdə islahatçılar mühafizəkar qanad qarşısında xeyli zəifdirlər**: ”Həm son 8 ildə hökumət onlarda olub, dolayısı ilə ölkənin iqtisadi və sosial-siyasi vəziyyətə görə cavabdehdirlər. İkincisi də hakimiyyətin bütün qollarında mühafizəkarlar güclüdür və islahatçılara şans tanımazlar. İslahat qanadının ümidi mühafizəkarların səslərinin Cəlili və Rəisi arasında parçalanması, eləcə də azərbaycanlıların dəstəyi və Rəisinin zəif performansınadır. Amma düşünürəm ki, bu, həlledici olmayacaq. Amma yenə də seçki gününə qədər birmənalı hökm vermək olmaz”.

**Aynurə Pənahqızı**

## XİN: Şuşa Bəyannaməsi yeni əməkdaşlıq imkanlarının təşviq edilməsinə yönəlib

**“Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” yeni əməkdaşlıq imkanlarının təşviq edilməsinə yönəlib.**

Bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib.

”Azərbaycan və Türkiyə Prezidentlərinin Şuşada imzaladığı Birgə Bəyannamə də məhz sülh və təhlükəsizliyin, yeni əməkdaşlıq imkanlarının təşviq edilməsinə yönəlib”, - deyə XİN rəsmisi qeyd edib.

## Mövlud Çavuşoğlu "Hər kəs Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir"



**”Azərbaycan torpaqları 30 il işğal altında qaldı. Qəhrəman Azərbaycan Ordusu 44 gün ərzində öz torpaqlarını işğaldan azad etdi”.**

APA-nın xəbərinə görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Antalya Diplomatiya Forumu ilə bağlı keçirilən brifinqdə deyib.

O bildirib ki, Azərbaycan münaqişənin diplomatik yolla həlli üçün uzun illər səbr edib: ”Lakin təəssüf ki, bu istiqamətdə göstərilən təşəbbüslər yetərli olmadı. Münaqişə dondurulmuş vəziyyətdə qaldı. Əlbəttə, Azərbaycanın səbrinin həddi var idi”.

*Türkiyə XİN başçısı qeyd edib ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib və hər kəs Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir.*

## Koçaryanın yalnız bir üstünlüyü var

### “O, müharibədəki məğlubiyyətin səbəbkarı kimi Paşinyanı göstərir”



**Azərbaycan Prezidenti İlham Əliyevin və türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanın Şuşa səfəri, əlbəttə, Ermənistan siyasi elitasını narahat edib.**

Hərçənd indi onların seçkilərdən başqa nə isə düşünməyə imkanları yoxdur. Müxalif qüvvələr xalqın rəğbətini qazanmaqdan ötrü müxtəlif şirnikləndirici vədlər verirlər. Hazırda Baş nazir vəzifəsini icra edən Nikol Paşinyan isə var qüvvəsi ilə hakimiyyətini qorumaq üçün çalışır.

**BDU-nun müəllimi, beynəlxalq məsələlər üzrə ekspert Sultan Zahidov seçkilərin nəticəsi barədə proqnozlarını ”Şərq”lə bölüşüb:** ”Əvvəldən mövcud olan xaos indi daha da artıb. Namizədlər biri-birlərini ləkələməklə, belə demək mümkünsə, ”çamur atmaq”la məşğuldurlar. Exit-polun nəticələrinə görə, Paşinyan 22 faiz səsə sahibdir. Koçaryan isə ondan bir az az səs malikdir. Deməli, dəqiq proqnoz verməkk çətin olsa da, Paşinyanın şansları daha çoxdur. Çünki xalqın əksəriyyəti məhz Koçaryanın hakimiyyəti dövründə yaşayıb və onun gətirdiyi fəlakətlərin şahidi olub. Koçaryanın əsas üstünlüyü müharibədəki məğlubiyyətin səbəbkarı kimi Paşinyanı göstərməkdir. Əslində isə problemin kökü məhz ”Qarabağ klanı” dövründə qoyulub. Həmin vaxt Ermənistan hakimiyyəti işğalçılıq siyasətini davam etdirməsəydi, hadisələr bu məcraya gəlməz, savaş başlamazdı”.

**Kənan**

# Yaxın bir neçə ildə gözlənilmir

## “Gürcüstanın NATO-ya üzvlük prosesi uzana bilər”

NATO-nun baş katibi Yens Stoltenberq Gürcüstanın bu quruma üzvlüyündən danışıb. O, NATO-nun əsas diqqətinin Gürcüstanda islahatlara, ölkənin müdafiə və təhlükəsizlik institutlarının möhkəmləndirilməsinə yönəldildiyini bildirib.




Y.Stoltenberq qeyd edib ki, Gürcüstan və Ukrayna Qara dəniz regionunda Alyans üçün çox mühüm tərəfdaşdır. Baş katib yaxın gələcəkdə Gürcüstan üçün yol xəritəsinin hazırlanıb-hazırlanmayacağı barədə suala cavab olaraq bildirib ki, NATO-nun qapıları açıqdır, lakin konkret müddətlərin açıqlanması planlaşdırılmır.

”Gürcüstan NATO-nun üzvü olacaq, lakin dəqiq tarix müəyyən edilməyib” - deyə, Stoltenberq əlavə edib.

**ReAL partiyasının icraçı katibi Natiq Cəfərli bu barədə fikirlərini ”Şərq”lə bölüşüb:** ”Gürcüstanın NATO üzvü olması ilə bağlı təklif illər əvvəl səslənmişdi. Hətta ölkədə NATO standartlarına uyğun islahatların aparılması şərti qoyulmuşdu. Gürcüstan NATO-dan kənar ölkələr arasında üzvlük planını yerinə yetirən birinci ölkələrdəndir. Ordunun bu qurumun standartlarına cavab verməsi istiqamətində müəyyən addımlar atılır”.

*N.Cəfərli, həmçinin məsələyə mane olan məqamları sadaladı:* ”NATO-nun nizamnaməsinə görə daxildə münaqişə olmayan ölkələr qurumun üzvü ola bilərlər. Gürcüstanda isə Cənubi Osetiya və Abxaziya problemi davam etməkdədir. İkinci bir tərəfdən, Rusiya dövlət başçısı Vladimir Putin bildirmişdi ki, Gürcüstanın NATO üzvü olması onlar üçün ”qırmızı xətt”dir. Və belə bir hal olsa, adekvat addımlar atılacaq. Odur ki, Gürcüstanın NATO-ya üzvlük prosesi uzana bilər. Hər halda yaxın bir neçə ildə bunu gözləmirəm. Biz NATO-ya üzv olmaq üçün çalışan Gürcüstanı dəstəkləməliyik. Qonşu dövlətin bunu nə vaxt bacaracağı isə sual altındadır”.

**Kənan**



# "Bütün dünya bilsin..."

## "Türkiyə Azərbaycanın yanındadır, bundan sonra da yanında yer alacaq"

### *Ərdoğanı parlamentdə millət vəkilləri ayaq üstə alqışladılar*

**"Qafqazda qanayan yara sağalıb. Bundan bütün bölgə ölkələri qazanclı çıxacaq". Bu sözləri dünən Milli Məclisin xüsusi iclasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Türkiyə lideri Qarabağı azad etmiş can Azərbaycanın Milli Məclisində olduğu üçün özünü bəxtiyar saydığını söyləyib. Prezident bildirib ki, Qarabağın azad edilməsi Azərbaycanın 30 illik müstəqillik tarixinin ən önəmli hadisəsidir: "Qafqazda qanayan yara sağalıb. Bundan bütün bölgə ölkələri qazanclı çıxacaq".**



**"Qarabağın azad olunması ilə Cənubi Qafqazda yeni əməkdaşlıq imkanları yaranıb"**

**Ərdoğan bildirib ki, Qarabağda münaqişənin davam etməsini istəyənlər həmişə bu münaqişədən qazanan tərəfdə olub:** "Ötən 30 ildə Qarabağda yaşanan gərginlik dönəmində kimlərin bu işdən qazanclı çıxdığı, kimlərin uduzduğu aydın görünür. Maddi və mənəvi baxımdan uduzanlar isə sadəcə Qarabağda yaşayan insanlardır. 30 ildir, mənim azərbaycanlı qardaşlarım öz məskənlərindən qaçqın oldular. 30 il sonra bu torpaqlar təkrar öz sahiblərinə qovuşdu. Qarabağda münaqişənin davam etməsinə səy göstərənlər isə həmişə bu münaqişədən qazanan tərəfdə olub. Böyük liderlik göstərərək bu zəfəri və barışı Azərbaycana qazandıran Ali Baş Komandan, hörmətli qardaşım İlham Əliyevi bir daha təbrik edirəm". Türkiyə lideri milli birlik ruhunu ən yüksəyə daşıyan Azərbaycan xalqını təbrik etdiyini vurğulayıb: "Əlbəttə, qəhrəmanca, gözünü qırpmadan mübarizə aparan Azərbaycan əsgərini təbrik edirəm. Şəhidlərimizin hər birinə Allahdan rəhmət diləyirəm".

**"Azərbaycanın sevinci sevincimiz, azadlığı azadlığımız, kədəri kədərimizdir"**

*Ərdoğan bəyan edib ki, bütün dünya bilsin ki, Türkiyə Azərbaycanın yanındadır, bundan sonra da yanında yer alacaq:* "Əhməd Cavad azərbaycanlı gənclərlə Osmanlı ordusunda savaşıbsa, Çanaqqalada azərbaycanlı qardaşlarımız da şəhadətə yüksəlibsə, Nuru Paşanın aslanları Azərbaycanın yardımına gəlibsə, biz də bu gün və gələcəkdə bir və bərabər olacağıq. Azərbaycanın aydınlığı aydınlığımız, sevinci sevincimiz, azadlığı azadlığımız, kədəri kədərimizdir. Dəyərli qardaşlarımız Nuru Paşanın Qafqaza gəldiyi dönəmdə ermənilər 12 mindən çox türkü qətl ediblər. Qafqazda tarixin qara səhifələrinə yazılacaq qiyam baş verib. Türk millətinə dil uzadanlar öncə Azərbaycana baxmalıdır. Həm də 100 il əvvələ deyil, 30 il bundan əvvəl Xocalıda, Qarabağda baş verənlərə baxmalıdır. Amma bunların gözləri var, görməz, qulaqları var, eşitməz. Qəlbləri onsuz da pas tutub. İndi gəlsinlər, Füzulini görsünlər. Buraların sağı-solu necə yandırılıb, dağıdılıb, görsünlər. Dünən yol boyu buraların vəziyyətini gördük".

**"Ermənilər gələndə işğalçı, gedəndə talançı olurlar"**

*Türkiyə rəhbəri qeyd edib ki, ermənilər gələndə işğalçı, gedəndə talançı olurlar. Sadəcə, bu fakt belə Qarabağın kimin torpağı olduğunu göstərir:* "Azərbaycanlılar 30 il əvvəl yurdlarını tərk etmək məcburiyyətində qalanda evlərini yıxmayıb, dağıtmayıblar. Çünki öz evlərini yıxa bilməzdilər. Azərbaycanlılar indi onların dağıtdıqlarını bərpa edəcəklər. Bərabər yeni bir Qarabağ quracağıq, bərpa edəcəyik. Qarabağ dünyanın ən gözəl bölgələrindən, mədəniyyətinə görə də dünyanın ən gözəl yerlərindən biridir. İnşallah yenə elə olacaq. Türkiyə olaraq bu dönəmdə də Azərbaycanın yanında yer almağa davam edəcəyik".

**"Əhməd Ağaoğlu kimi təkcə Azərbaycanda deyil, Türkiyədə də məşhur olan dahilərin məkanı olan Şuşa ayağa qalxır"**

*Ölkə rəhbəri vurğulayıb ki, Şuşa ədəbiyyatın, sənətin, mədəniyyətin ən yüksək səviyyədə yaşadığı və yaşadıldığı şəhər olub:* "Şuşa Molla Pənah Vaqifdən başlayaraq ədəbiyyatın mərkəzi vəsfini qoruyub. Şuşa dahi bəstəkar Üzeyir Hacıbəylinin, Bülbülün, Natəvanın, Rəşid Behbudovun və daha neçə sənətkarların, şairlərin yurdudur. Əhməd Ağaoğlu kimi təkcə Azərbaycanda deyil, Türkiyədə də məşhur olan aydınların məkanı olan Şuşa yenidən ayağa qalxır. Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi və ötən günlərdə Şuşada keçirilən "Xarıbülbül" festivalı dünyaya bunu nunla bağlı verilən mesajdır. Vaqif şeir festivalının da keçirilməsi üçün hazırlıqlar getməkdədir. Şuşanı gələcək il türk dünyasının mədəniyyət paytaxtı olaraq görməkdən qürur duyacağıq. Türk dünyasının dörd bir yanından gələcək mədəniyyət və sənət xadimləri bu gözəl şəhərdə görüşəcək".

**"Qarabağ zəfəri savaş deyil, barış zəfəridir"**

*Türkiyə prezidenti deyib ki, qədimdən gələcəyə quracağımız körpü ilə mədəniyyətimizi yenidən yüksəltmək öz əlimizdədir:* "Qardaşlığımızı nə qədər möhkəm eləsək, bir-birimizi nə qədər möhkəm tutsaq, bu hədəfə o qədər tez çatacağıq. Qarabağ zəfərinin nəticələri zaman keçdikcə daha yaxşı anlaşılacaq. Çünki bu, savaş deyil, barış zəfəridir".

**"Türkiyə ilə sərhədlərin açılmasının Ermənistan üçün faydalarını saymaqla bitməz"**

*Ərdoğan bildirib ki, Türkiyə ilə sərhədlərin açılmasının Ermənistan üçün faydalarını saymaqla bitməz:* "Bu zəfərin ardından edilənlərə və ediləcəklərə baxanda hansı işlər görəcəyimiz aydın olur. Hər şeydən əvvəl Qarabağa sükut hakim olub. İnşallah, bir sonrakı gəlişimizdə bu torpaqların insanlarının öz evlərinə yerləşməsinin sevincini yaşayacağıq. Bir an öncə evləriniz tikilir, tikiləcək. Sizin bu evlərə yerləşməyinizi gözləyirik. Hazırda yollar sürətlə tikilir, elektrik stansiyaları açılır, bir tərəfdən nəqliyyat infrastrukturu qurulur. Zəngəzur dəhlizinin bölgəyə gətirəcəyi faydaların sözlə ifadəsi mümkün deyil. Bütün bunlar Azərbaycanla birlikdə Ermənistan üçün də yeni bir dönəmin başlanğıcıdır. Zəngəzur dəhlizi ilə çəkiləcək dəmiryolu ilə ermənilər də hərəkət edə, Moskvaya gedə biləcək, bununla özlərini saldıqları blokadadan qurtulacaqlar. Türkiyə ilə sərhədlərin açılmasının Ermənistan üçün faydalarını saymaqla bitməz".

**"Gürcüstan baş nazirinə bildirdim ki, "altılıq" platforması sizin də faydanızadır"**

*Ərdoğan vurğulayıb ki, Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan və Gürcüstan platformasının yaradılması faydalıdır:* "Belə bir platformanın yaradılmasında məqsəd bölgədə sabitlik yaratmaq, düşmənçilikləri ortadan qaldırmaqdır. Tək Gürcüstanın bu mövzuda sualları var idi. Son Türkiyə səfərində gürcü Baş nazirlə danışdım və dedim ki, bu, Gürcüstanın da lehinə olacaq, gəlin, bu addımı ataq. Dedim ki, bizim Ermənistanla aramızda olan problemləri bilirsiniz. Amma bütün bunlara baxmayaraq, azərbaycanlı qardaşlarımızın problemlərinin aradan qalxmasını istəyirik. Eyni şəkildə sizin də Rusiya ilə problemlərinizi həll etməyiniz üçün bu platforma yardımçı olacaq. Dedi, çalışaq, yaxşı olar, dedim. Çünki bu bölgənin sülhə ehtiyacı var, bunu bacarmağımız lazımdır".

**"Ermənistan Azərbaycanla problemlərini həll etdikcə, biz də Türkiyə olaraq lazımi addımları atacağıq"**

*Türkiyə prezidenti qeyd edib ki, Ermənistan Azərbaycanla problemlərini həll etdikcə, Ankara da lazımi addımlar atacaq:* "Qafqazın boynuna bir daha kimsənin əsarət zənciri vura bilməməsi üçün qarşımıza çıxan fürsətləri birlikdə ən yaxşı şəkildə dəyərləndirməliyik. Biz bu mübarizəni özümüz və dostlarımızla birlikdə "Dünya beşdən böyükdür" deyərək, qlobal səviyyədə də aparırıq. Mən bura NATO zirvəsindən gəldim. Bunları NATO zirvəsində də danışdıq, dəyərləndirdik. Bura müsbət düşüncələrlə gəldik. Amma dünyanın problemləri bitmir. Dünyada həll ediləcək çoxlu problem var. Amma dik dursaq, sağlam dursaq, bir olsaq, bərabər olsaq, Allahın izni ilə bunları həll edərik. İnşallah, mədəniyyət günəşimizi yenidən ən yüksəyə qaldıraraq, bölgədə və dünyada sülh və ədalətin hakim olacağı günlər yaxındadır".

Ərdoğan nitqini Bəxtiyar Vahabzadənin aşağıdakı şeiri ilə bitirib:

**Bir ananın iki oğlu,**
**Bir amalın iki qolu.**
**O da ulu, bu da ulu**
**Azərbaycan-Türkiyə.**
**Dinimiz bir, dilimiz bir,**
**Ayımız bir, ilimiz bir,**
**Eşqimiz bir, yolumuz bir,**
**Azərbaycan-Türkiyə!".**

**İsmayıl Qocayev**




# Ermənilərlə birgə yaşayış mümkündür, amma...

## "Şərq"in Qarabağlı içtimaiyyət nümayəndələri arasında apardığı sorğu maraqlı məqamları üzə çıxardı





Qarabağ öz gözəlliyi, yeraltı, yerüstü sərvətləri ilə yadellilərin diqqətini hər zaman cəlb etmiş və bu gözəl diyar zaman-zaman qanlı hərb meydanına çevrilmişdir. Ac qurdlar süfrəsində yağlı tikə olan Qarabağ didilmiş, əzilmiş, amma sınmamış, öz əzəməti, vüqarı ilə düşmənlərə meydan oxumuşdur. Ötən il Azərbaycan döyüş meydanında parlaq qələbə qazanaraq 30 illik düşmən işğalı altında olan doğma Qarabağımızı düşməndən azad etdi.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu canı-qanı bahasına Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Öz ata-baba ocağımız, doğma torpaqlarımız tarixi sahibinə qayıtdı. Bir qanadı yaralanmış qartala bənzər xəritəmiz öz bütövlüyünə qovuşdu. Dağlıq Qarabağ uğrunda apardığımız haqlı mübarizədən sonra işğaldan azad olunan ərazilərdə ermənilərlə azərbaycanlıların birgə yaşayışı qarşıda duran əsas məsələlərdən biridir. "Şərq" mövzu ilə bağlı ölkə ictimaiyyəti arasında sorğu keçirib.






**Mövzu ilə bağlı Milli Məclisin deputatı Elman Məmmədov "Şərq"ə açıqlamasında qeyd edib ki, tarixən öz qəddarlığı ilə bizə qarşı xüsusilə fərqlənən ermənilər olub: "İndi də ermənilər həmin mövqedədirlər:** "Cənab prezidentimiz hər zaman çıxışlarında sülh şəraitində iki xalqın birgə yaşayışının mümkünlüyünü ifadə edib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşada verdiyi bəyanatlarında belə bir mesaj da ünvanladı ki, biz bölgədə həmrəyliyin, qonşuluğun, əməkdaşlığın tərəfdarıyıq və Ermənistanı da buna səsləyirik. Onlar müharibə anonslarından, düşmənçilik çağırışlarından əl çəksinlər. Bu gedişatla, yəni ermənilərin bizə qarşı tarixi bu barışmaz düşmənçilik mövqeyi və bizi qəbul etməmələriylə hesab eləmirəm ki, onlarla birgə yaşayış mümkün olsun. Yəni biz türk, müsəlman xalqları olaraq həmişə hamıya səmimi dost münasibət əlimizi uzatmışıq. İstəməmişik ki, kimləsə düşmən olaq. Lakin ermənilər bizə qarşı düşmən olublar. Yəni tarixən öz qəddarlığı ilə bizə qarşı xüsusilə fərqlənən ermənilər olublar. İndi də həmin mövqedədirlər. Təbii ki, onlar belə mövqedə durarlarsa, birgə yaşayışı mümkün hesab etmirəm".

**Əməkdar jurnalist Səadət Məmmədova "Şərq" ə açıqlamasında bildirib ki, bu, ermənilərdən asılı olan bir məsələdir:** "Azərbaycan xalqı bütün millətlərin nümayəndələri ilə sülh və tolerantlıq mühitində birgə yaşaya bildiyini sübut edib və hətta xalqımızın bu xüsusiyyəti hər zaman örnək göstərilir. Ermənilər Azərbaycana qarşı ərazi iddiası qaldırıb, torpaqlarımızı işğal edənədək biz onlarla da Qarabağ ərazisində də, Bakıda da mehriban və problemsiz şəraitdə birgə yaşayırdıq. Amma bu sülhü ermənilər pozdu. Yenə də Azərbaycan xalqı sülhə sadiqliyini bəyan edir və ərazimizdəki digər xalqların nümayəndələri kimi ermənilərə də birgə dinc yaşayış vəd edir. Amma bütün dövrlərin "oyunpozanı" ermənilər buna hazırdırmı? Bu xalqın hamıya və hər şeyə nifrəti nəticəsində Ermənistan monoetnik dövlətdir. Biz ermənin xalqının sadə nümayəndələri ilə nifaq aparmadığımızı və birgə yaşamaq niyyətimizi dəfələrlə bəyan etmişik, bəyənmirlər və ya istəmirlərsə, gedib öz monoetnik dövlətlərində yaşaya bilərlər".

**Əslən Şuşadan olan, Böyük Qələbəmizdən sonra hər gün, hər saat Şuşaya qayıdacağı günü, saatı gözləyən peşəkar həmkarımız Kəmalə Cahidqızı "Şərq"ə açıqlamasında deyib ki, əslində o, iki fərqli fikirdədir:** "Mənim cavabım əslində iki variantda ola bilər. Əgər istək olaraq yanaşsaq, təbii ki, net olaraq ermənilərlə birgə yaşayışın qətiyyən mümkün olmayacağını deyərəm. Biz hələ sovet dönəmində Qarabağda yaşayan azərbaycanlı əhali olaraq ermənilərin yaratdığı mənəələrlə çox üzləşirdik. Nəzərə alsaq ki, bu, hələ "mehriban qonşu ölkələr" dövrü idi. Ancaq məsələnin bir də siyasi tərəfi var və bir az real baxanda, ermənilərin Azərbaycanda yaşayacağı ehtimalı çoxdur. Təbii ki, artıq Qarabağda bir erməni üstünlüyü, hegemonluğu olmayacaq, ancaq biz tolerant bir ölkə olduğumuzu hər zaman vurğulayırıq deyə, ermənilərə də digər xalqlar kimi Azərbaycanda yaşamaq hüququnun verilmə ehtimalının mümkünlüyünü təxmin edirəm".

**Müstəqil Jurnalistlərə Texniki və Hüquqi Yardım İctimai Birliyinin sədri Asəf Quliyev "Şərq"ə açıqlamasında vurğulayıb ki, belə münaqişələrdə iki münaqişələrin həlli ilə məşğul olan konfliktoloqlar iki halı nəzərdən keçirməyi tövsiyə edirlər:** "Birincisi, yanaşı yaşamaq. İkincisi, birgə yaşamaq. Bunları konfliktin həll olunması mərhələləri də hesab etmək olar. Əvvəlcə deyim ki, mən ilk mərhələdə yanaşı yaşamağın mümkünlüyünə inanıram və bunun üçün müəyyən addımların atılmasını labüd hesab edirəm. Birgə yaşayış isə çox uzaq məqsəd kimi qarşıya qoyulmalıdır. Birdən-birə birgə yaşayış barədə danışmaq prosesə ziyan verən amildir. Bu, məsələnin bir tərəfi. Digər tərəfdən isə nəzərə alsaq ki, dünyanın müxtəlif bölgələrində azərbaycanlılarla ermənilərin nəinki yanaşı, hətta birgə yaşayış nümunələri hələ də var. Əgər varsa, multikultural Azərbaycanda bu niyə olmasın? Gürcüstanda birgə yaşayış kəndləri var. O cümlədən Türkiyədə, İranda. Rusiyada belə nümunələrə rast gəlmək olar. Birmənalı demək lazımdır ki, Azərbaycan və Ermənistan arasında olan münaqişə ərazi münaqişəsidir və bu münaqişəyə 44 günlük müharibədə son qoyuldu. Azərbaycan sərhədlərini bərpa etdi. Münaqişənin bitməsini istəməyənlər və bundan bəhrələnənlər isə bunu milli münaqişə kimi təqdim etməkdə maraqlıdır. Çox təəssüf ki, məsələni milli münaqişə müstəvisinə keçirənlərin məqsədini anlamayaraq bu xətti tutanlar var və onlar birgə yaşayışın mümkün olmadığını deyirlər. Ona görə də, ilkin zamanlarda "birgə yaşayış" terminini "yanaşı yaşamaq" termini ilə əvəz etmək lazımdır".

**Jurnalist Araşdırmalar Mərkəzinin rəhbəri, "Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə "Şərq"ə açıqlamasında deyib ki, Qarabağda birgə yaşayış azərbaycanlılardan çox ermənilərə lazımdır:** "Biz 28 il sonra torpaqlarımızı işğaldan azad etmişik. Ərazidə artıq quruculuq-abadlıq işləri başlayıb. Əminəm ki, məhz abadlaşdırma siyasəti nəticəsində yaxın illərdə ermənilərin murdar izini Qarabağdan siləcəyik. Qarabağ tezliklə dünyanın ən gözəl yaşayış məskənlərindən birinə çevriləcək. 44 günlük Vətən müharibəsində ordumuz Qarabağda irəlilədikcə, biz ermənilərin uzun illər necə ağır şəraitdə yaşadığının şahidi olurduq. Azərbaycan qələbə qazanmaqla, həm də ermənilərə adam kimi yaşamaq şansı verib. Əgər Qarabağ erməniləri üçrəngli bayrağımızı öpüb qanunlarımıza tabe olsalar, o zaman güclü Azərbaycan dövlətinin himayəsi altında yaşayacaqlar. Ermənilər çox hiyləgər millətdir və əminəm ki, bu şansı əldən verməyəcəklər. Azərbaycan isə humanist dövlətdir. İstintaq nəticəsində terrorçuluqla məşğul olmadığı müəyyənləşdirilən 15 erməninin geri qaytarılması da bunu sübut edir. Azərbaycan xalqına güllə atmayan ermənilər üçün heç bir təhlükə yoxdur".

**Jurnalist - publisist Rasim Mədəd "Şərq"ə açıqlamasında diqqətə çatdırıb ki,** Qarabağda ermənilərlə birgə yaşamaq məsələsi aparılan düzgün siyasətin nəticələrindən asılı olacaq. O qeyd edib ki, bu isə vaxt tələb edir.

**Qarabağ qazisi, hərbi jurnalist Rey Kərimoğlu "Şərq"ə açıqlamasında bunun mümkün olduğunu söyləyib:** "Əlbəttə mümkündür. Amma bir şərtlə! Azərbayacana qarşı silah qaldırmış, cinayət törətmiş ermənilər Azərbaycan məhkəmələri qarşısına çıxarılmalıdır. Yalnız Azərbaycan qanunlarını qəbul edib, hörmət və ehtiram bildirənlər isə qalıb yaşasın".

**Aynurə Pənahqızı**

# Professor "mənə inanın" dedi

*"Koronavirus artıq əbədiyyətə qovuşub"*

**"Ən ağır virus infeksiyasının davam etmə müddəti ilin xronoloji fəsli növbələşməsinə görə, 12 aydan artıq ola bilməz. Əks halda bu, təbabət və mövcudiyyət qanunlarına ziddir".**



"Peyvəndlənmə immunitetin yaranmasını əks etdirən və ya sübut edən yeganə və əsas göstərici deyildir"

**Bu fikirləri "Şərq"ə açıqlamasında tibb elmləri doktoru, professor Musa Qəniyev deyib.** Həkim vurğulayıb ki, antik dövrdən günümüzə qədər tarixin yaddaşında qalan 60 epidemiya və 5 pandemiyanın davam etmə müddəti iki il göstərilir: "Lakin bu müddət infeksiyanın başlaması və tam sönməsi tarixidir. Yəni potensial yoluxduruculuq qabiliyyətinin davam etmə müddəti deyildir. Odur ki, "Covid-19" artıq əbədiyyətə qovuşur. Buna inanın. Onun dəfn tarixi, 30 dekabr 2021-ci il, yəni ilk dəfə bu infeksiya haqqında verilən məlumatın ikinci ilinin tamam olduğu gündür".

**M.Qəniyev hazırda insanları peyvəndləmə ilə bağlı ən çox narahat edən bəzi gizlinlərə də aydınlıq gətirib:** "Müxtəlif telemekanlara yol tapan qeyri-mütəxəssislərin, xüsusən tiblə heç bir bağlılığı olmayan insanların məsləhət və tövsiyələrinə sadəcə olaraq, qulaq asmayın. Vaksinasiya ilə idarə olunan əksər infeksiyalara münasibətdə belə bir qanunauyğunluq mövcuddur: bu infeksiyalara yoluxaraq sağalmış insanlarda əmələ gələn təbii immunitet daha dözümlü, spesifik və fəaldır. Orqanizmdə onlar daha uzunmüddətə saxlanılır, nəinki peyvəndləmədən sonra yaranan immunitet. Bir sıra tədqiqatçılar bu antitellərin identik olduğunu, hətta peyvəndləmədə yaranan immunitetin daha güclü və dözümlü olduğunu söyləsələr də, əslində bu söyləntilər "İri Konsern" maraqlarına xidmət etməklə, yalnız təbliğat məqsədi daşıyır. Çünki bunun "Covid-19"a aidiyyətini təsdiq edəcək, heç bir elmi məlumat yoxdur. Digər mübahisəli və insanları narahat edən məsələ, yaranan antitellərin titridir. Bildirmək istəyirəm ki, antitellərin titri (onun az və ya çox olması), "Covid-19"a qarşı immunitetin yaranmasını əks etdirən və ya sübut edən yeganə və əsas göstərici deyildir. Çünki əksər infeksiyalardan sonra məlum serotipə qarşı "immunoloji yaddaş effekti" yaranır. Başqa sözlə, ilk xəstələnmədən sonra əmələ gələn qoruyucu antitellərin titri azalsa, hətta sıfırlansa belə, orqanizm analoji virus ştammı ilə təkrarən qarşılaşırsa, o zaman çox sürətlə qoruyucu antitellər sintez etməklə virusa qarşı güclü "müdafiə effekti" yaradır".

**Tibb elmləri doktoru əlavə edib ki, bu, aşağıdakı mexanizmlə baş verir:** "Əvvəla, xəstəlik və ya peyvənddən sonra əmələ gələn qoruyucu, yəni virusu-neytrallaşdıran antitellər iki həftədən sonra azalmağa başlayır. Lakin qanda təqribən 8-10 aya yaxın bir müddətə qədər saxlanılır. Odur ki, bu antitellərin titrinin azalması, hətta tamamilə itməsi halında belə, narahatlığa heç bir əsas yoxdur. Digər tərəfdən, istər xəstələndikdən, istərsə də peyvənd aldıqdan sonra, bəzi şəxslərdə hətta antitellər əmələ gəlməyə bilər. Burada da qeyri-adi bir şey yoxdur və insanlar qorxub stressə düşməməlidir ki, məndə qoruyucu antitellər yoxdur və mən "təkrar xəstələnə bilərəm". Çünki qoruyucu antitellərin həmin şəxslərdə əmələ gəlməməsi bəzi insanlarda yalnız genetik faktorla bağlı irsi bir haldır, yəni "peyvəndə qarşı inertliklə" əlaqədardır. Bu cür insanları hətta obrazlı şəkildə "genom quruluşu tərkib paklığını qoruyan - xoşbəxt insanlar" adlandırırlar. Belə ki, çox məhdud sayda olan belə insanların immun sistemi fərdi spesifiklikliyə malik olduğundan nəinki, peyvənddən, hətta "Covid-19"un ağır klinik formasını keçirib sağaldıqdan sonra belə, onlarda antitellər yaransa da, saxlanılmır. Buna baxmayaraq, həmin şəxslər də bu infeksiyaya qarşı qoruyuculuq qazanırlar".

**Aynurə Pənahqızı**



## Yoluxanların sayı 30-dan aşağı düşdü

### Koronavirusdan 1 nəfər vəfat edib, 162 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 27 yeni yoluxma faktı qeydə alınıb, 162 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 335 291 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 329 038 nəfər müalicə olunaraq sağalıb, 4 959 nəfər vəfat edib, aktiv xəstə sayı 1 294 nəfərdir. *Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 023, ötən müddət ərzində isə ümumilikdə 3 644 912 test aparılıb.*

## Rusiya əndişədədir

### Əhalinin 60 faizi peyvənd olunacaq



**Moskvanın baş infeksionisti əhalinin 60 faizinin vaksinləşməsi barədə əmr imzalayıb.**

Bu barədə "Şərq" TASS-a istinadən xəbər verir. Bildirilir ki, paytaxtda COVİD-19-a yoluxanların sayı yenidən artıb.

**Kənan**

# Diqqət, istirahət ayları başladı

*Meşə ətrafına üz tutan vətəndaşlar yanğından maksimum ehtiyatlı olmalıdır*

Dünyanın müxtəlif bölgələrində hər il baş verən meşə yanğınları, təəssüf ki, minlərlə hektar meşə sahəsinin məhvi ilə nəticələnir, yaşıllıqlar yanaraq külə dönür.



Ölkə ərazisində yanğın hadisələrinin baş verməməsi üçün də hər il Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər, Kənd təsərrüfatı nazirlikləri fermerlərə, bələdiyyə və icra orqanları nümayəndələrinə, kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara, ümumilikdə əhaliyə müraciət edir ki, əkin sahələrində, təbiət ərazilərində yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etsinlər. İsti yay günlərinin və taxıl biçini mövsümünün başlaması, eyni zamanda insanların təbiət qoynuna üz tutması yanğınların başvermə ehtimalını daha da artırır. Təəssüf hissi ilə qeyd etməliyik ki, bəzən ayrı-ayrı insanların meşə təsərrüfatına qayğısızlığı, onun qorunub saxlanılmasına laqeydliyi meşə ərazisində kortəbii, idarə olunmayan alovun yayılması və bütün ərazidəki bitki örtüyünün təbii surətdə yanması ilə nəticələnən meşə yanğınlarını törədərək təbiətin bu əvəzsiz nemətinin məhv olmasına gətirib çıxarır. İnsanların həyat və fəaliyyətində mühüm rol oynayan, sözün həqiqi mənasında onların qayğısına qalan meşələrin özünün daim qayğıya ehtiyacı var. Meşələrdən bəhrələnməklə, onun nemətlərindən istifadə etməklə yanaşı, təbiətin bu füsunkar nemətini qorumaq, onu gələcək nəsillərə ərməğan etmək hər bir vətəndaşın borcudur. Aparılan təhlillər göstərir ki, meşə sahələrində baş vermiş yanğın hadisələrinin əksəriyyəti yanğın təhlükəsizliyi qaydalarına riayət etməyən vətəndaşların, biçindən sonra sahələrə od vuran fermerlərin, təbiət qoynunda istirahət edən insanların odla ehtiyatsızlığından baş verir. Bəs insanlar hansı təhlükəsizlik qaydalarına riayət etməlidirlər?

**Məsələ ilə bağlı təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə açıqlama verib. Ekspert vurğulayıb ki, meşə yanğınlarına xüsusən yay aylarında daha çox rast gəlinir:** "İnsanlar istirahət etmək üçün meşənin ətrafına gedirlər. Orada od qalayır, yemək-içmək təşkil edirlər və sonda odu tam söndürmədən, yaxud sönməsinə əmin olmadan gedirlər ki, bu da sonda alışmaya, yanğına səbəb olur. Ümumiyyətlə, meşə ətrafı hər zaman çirkli tullantılardan təmiz olmalıdır. Ora məişət tullantıları atmaq, ətrafı zibilləmək olmaz. Bu, ən birinci yanğın təhlükəsi yaradan səbəbdir. Hətta şüşə butulkalarının quru ot üzərində olması və günəş şüalarının onun üzərinə davamlı düşməsi nəticəsində yaranan istilik səbəbindən alışma ola bilir. Ona görə də mütləq insanlar meşə ətrafında istirahətə gedəndə açıq oddan istifadə etdikdən sonra odun tam sönməsinə əmin olsunlar və daha sonra ərazini tərk etsinlər".

**E.Nurəliyev əlavə edib ki, siqareti söndürmədən yerə atmaq, nasaz maşını meşə ətrafında təmir etdikdə yerə dağılan yanacaq və yağlar da yanğına səbəb olan amillərdəndir:** "Habelə, meşəyə atılan məişət və kimyəvi tərkibli tullantılar da yanğın təhlükəsi yaradır. Nəzərə almaq lazımdır ki, meşədə baş verən yanğınlar həm ətraf mühitə, həm ekoloji təhlükə, həm də insanların həyat və sağlamlığına təhlükə yaradır. Bir faktı da qeyd edim ki, meşə ərazisinin relyefi mürəkkəb olduğuna görə yanğın zamanı yanğınsöndürənlərin işini çox çətinləşdirir. Ona görə də insanlar bu kimi məsələlər də daha diqqətli olmalı və yanğın təhlükəsi yaratmamaları üçün məsuliyyətli davranış sergiləməlidirlər".

**Aynurə Pənahqızı**

# İctimai və dövlət maraqlarının müdafiəsi



# Xəritə hazırlanır

## Qarabağdakı su ehtiyatlarımız daha əlçatandır

"Azad edilmiş bütün torpaqların su mənbələrinin xəritəsi hazırlanır. Bizim bütün su ehtiyatlarımız, çaylarımız, göllərimiz, su anbarlarımız - bu sərvətimiz indi bizim əlimizdədir. Bu sudan səmərəli şəkildə istifadə etmək üçün yeni kanalların çəkilməsi və köhnə kanalların bərpası məqsədilə artıq vəsait də ayrılıb, müvafiq göstərişlər verildi və geniş proqram icra edilməyə başlanıb". Bunu Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli rayonuna növbəti səfəri zamanı Aşağı Köndələnçay su anbarında olarkən söyləyib.

### "Yalnız qənaət və səmərəli istifadə Qarabağ və ətraf bölgələrdə aqrar sektorun inkişafı üçün əsas şərtlərdən biridir"

Prezident qeyd edib ki, Köndələnçay su anbarına bir müddət əvvəl heyət göndərib və anbarın vəziyyətinin araşdırılmasını istəyib: "Su anbarının vəziyyəti araşdırıldı. Həyat bu bölgəyə qayıdandan sonra əlbəttə ki, biz bu sudan istifadə edəcəyik. İşğal dövründə mənfur düşmən bizi sudan məhrum etmişdi. "Sərsəng" su anbarı, Suqovuşan su anbarı düşmənin əlində olduğuna görə 100 min hektar torpaq susuz qalmışdı və bir neçə rayonda su təminatını yaxşılaşdırmaq üçün yüzlərlə subartezian quyusu qazılmışdır. Ağdam, Tərtər, Bərdə, Yevlax, Goranboy və digər rayonlar Tərtərçayın suyundan məhrum edilmişdi. Mənə bu yaxınlarda verilən məlumata görə, Vətən müharibəsindən sonra 30 min hektardan çox sahəyə Suqovuşan su anbarından su verilməyə başlanmışdır. Eyni zamanda, Ağdam rayonunda Xaçınçay su anbarı da bizim nəzarətimizdədir, işğaldan azad edilib və o su anbarı bu su anbarından həcm baxımından daha böyükdür. Bir daha demək istəyirəm ki, bizim bütün su ehtiyatlarımız araşdırılır, təhlil edilir və gələcəkdə bizə böyük üstünlük verəcəkdir". Prezidentin Füzuliyə növbəti səfəri bir daha təsdiq etdi ki, işğaldan azad edilmiş ərazilərə həyat qayıdır, yaxın zamanda insanlarımız da qayıdacaq və Qarabağda tayı-bərabəri olmayan yeni həyat başlayacaq. Amma əlbəttə, bunun üçün bütün təbii sərvətlərdən, o cümlədən su ehtiyatlarından da səmərəli istifadə şərtdir. Çünki hazırda dünyada qlobal su böhranı yaşanır. Sudan səmərəli istifadənin yolları, üsulları haqqında mütəxəssis rəyini təqdim etməzdən öncə, Qarabağda davam edən quruculuq işlərinə qısaca nəzər salaq.

### Hava limanının tikintisi də sürətlənib

Füzulidə beynəlxalq hava limanının tikintisində xeyli irəliləyişlər əldə olunub. AZAL-ın nümayəndəsi Valeh Əmiraslanov Füzuliyə səfər etmiş media nümayəndələrinə açıqlamasında bildirib ki, genişfüzelyajlı hava gəmilərini qəbul etməyə imkan verən asfalt-beton örtüklü uçuş-enmə zolağının tikintisi davam edir. Uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni 60 metr təşkil edəcək. Eyni zamanda, 60 min kv.m-ə qədər sahəsi olan perronun tikintisi davam edir.

Terminal binasında beton işləri başa çatdırılıb, hazırda metal konstruksiyaların qurulması işləri davam etdirilir. Terminalın dam örtüyü üçün nəzərdə tutulan materiallar İtaliyadan gətirilib. Həmçinin Türkiyədən binanın fasad hissəsi üçün lazım olan materiallar sifariş verilib. Elektrik və mexaniki avadanlıq Avropadan sifariş edilib. Hava gəmiləri uçuşlarının aeronaviqasiya və işıq-texniki təminatı üzrə avadanlığın quraşdırılması üçün zəruri olan infrastrukturun hazırlanması ilə bağlı işlər tamamlanıb. Bu avadanlıq zavod sınaqlarından uğurla keçib və artıq Füzulidəki beynəlxalq hava limanı üçün çatdırılıb. Gələcək aerovağzal kompleksini elektrik enerjisi ilə təmin etmək üçün əsas transformator yarımstansiyasının (10 kVt) tikintisi və elektrik xətlərinin çəkilməsi ilə bağlı işlər də başa çatdırılıb. Bu məqsədlə 2,5 kilometrlik sahədə minalardan təmizləmə işləri aparılıb. Hava limanı ərazisində qazanxana və digər köməkçi bina və sahələrin tikintisi davam edir. Fasiləsiz su təminatı məqsədilə artezian quyusunun qazılması, həmçinin su rezervuarlarının tikintisi üzrə işlər başa çatdırılıb. Tikinti prosesini optimallaşdırmaq üçün Füzuli hava limanının yaxınlığında asfalt və beton zavodu inşa edilib. Sentyabr ayınadək uçuş-enmə zolağının istifadəyə verilməsi, hava hərəkətini idarəetmə qülləsinin tikintisi başa çatdırılacaq.

### "Zəfər" yolu da tamamlanmaq üzrədir

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin şöbə rəisi İlham Süleymanov bildirib ki, 101 km-lik Əhmədbəyli-Füzuli-Şuşa - "Zəfər" yolunun tikintisi üzrə işlərin 75-80 faizi görülüb, torpaq işləri yolun 51 km-liyində tam başa çatdırılıb. "Hazırda yol konstruksiyasının inşası aparılır. Artıq Zəfər yolunun 1 km 200 m hissəsinin asfalt örtüyü də vurulub. Yolun üzərində 4 körpü inşa olunacaq. Körpülərdən 3-də tikinti işlərinin 70 faizi görülüb", - deyə o qeyd edib. Şöbə rəisi körpülərin Ağdam-Füzuli yolunun həm yolötürücüsü, həm də çay yataqları üzərində süni qurğu funksiyası yerinə yetirəcəyini söyləyib. İ.Süleymanov Zəfər yolunun tamamlanmaq üzrə olduğunu vurğulayıb. Bütün bu işlər onu deməyə əsas verir ki, çox yaxın zamanda Qarabağda əhalinin məskunlaşması prosesi başlayacaq. Bu zamansa insanlara ilk növbədə su lazım olacaq. Su ehtiyatlarından səmərəli istifadə buna görə böyük əhəmiyyət daşıyır.

### "Su mənbələrindən istifadədə elmi yanaşma vacibdir"

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə açıqlamasında ərazilərimizin işğaldan azad edilməsi sayəsində əldə olunan su ehtiyatlarının aqrar sektorun inkişafına böyük töhfə verəcəyini dedi. İqtisadçı eyni zamanda qeyd etdi ki, su ehtiyatlarından səmərəli istifadə vacib məsələdir. Burada diqqət yetirilməli bir neçə mühüm amil var:**

- Azərbaycanın aqrar sektorunda ən böyük problem, ən böyük maneə məhz su ehtiyatlarının müəyyən hissəsinin düşmənin əlində olması idi. Ümumiyyətlə, su mənbələrindən istifadədə israfçılığa, səbəbsiz itkilərə yol verilməsi Azərbaycan aqrar sektorunun əsas problemi olub. Yadınızdadırsa, Prezident İlham Əliyev bir müddət əvvəl meliorasiya və su ehtiyatlarında yol verilmiş israfçılıq, itkilər barədə tənqidi fikirlər səsləndirdi, bu sahədə problemlərin aradan qaldırılmasına, müasir suvarma sistemlərinin tətbiqinə dair göstərişlər verdi. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbənin bizə qazandırdığı ən böyük üstünlüklərdən biri də su ehtiyatlarımızın da işğalına son qoyulmasıdır. Ərazilərimizin işğaldan azad edilməsiylə biz həm də bol su ehtiyatlarımıza əlçatanlığı təmin etdik. İndi qalır, bu ehtiyatlardan səmərəli istifadə etmək. Bu məsələdə köhnə sovet təfəkküründən çıxmaq lazımdır. "Görüş" filmindəki epizod yadınızdadır? Suçu suyu açıb buraxıb pambığa, deyir,"qoy nə qədər istəyir içsin". Belə başıpozuq, səhlkənkar yanaşmadan əl çəkilməlidir. Dünyada suvarma sistemiylə bağlı müasir, itkilərə yol verilməyən üsullar tətbiq olunur. Müsbət örnəklərdən biri də İsrailin aqrar sektordakı təcrübəsidir. İsraildə quraqlıq sahələrin geniş olmasına baxmayaraq bu ölkədə məhsuldarlıq böyükdür. Çünki suvarmada damcı və kompüter proqramı ilə hər məhsula yetəcək qədər suyun hesablanması üsulundan istifadə edilir. Bu üsulların tətbiqi sayəsində su ehtiyatlarının kasad olmasına baxmayaraq İsrailin aqrar sektoru böyük məhsuldarlığa nail olur, su itkisinə də yol verilmir. Biz su ehtiyatlarından qənaətlə istifadəni öyrənməliyik. Azərbaycan aqrar sektorunun 2 əsas problemi var. Biri toxumçuluqdur, biri də məhsuldarlıq. Azərbaycanda hər hektardan əldə edilən məhsulun həcmi beynəlxalq standartlara cavab vermir. Toxumçuluq da zəif inkişaf edir. İşğaldan azad edilmiş ərazilərimiz bizə su mənbələri baxımından böyük üstünlüklər verir. Su ehtiyatlarımız artıq əlçatandır. Dövlət proqramları icra olunur, su elektrik stansiyaları, su anbarları tikilir. Bununla yanaşı artezian quyularının qazılması da paralel aparılır. Harda ki, su kanalı inşa etmək çətindir, təbii resurslar yetərli deyil, o ərazilərdə artezian quyularının qazılmasına ehtiyac var, bunlar olmalıdır. Lakin artezian quyularının qazılması da kortəbii aparılmamalıdır. Dövlət büdcəsindən bu iş üçün konkret vəsait ayrılıb. Gərək vəsaitdən də səmərəli istifadə olunsun, əlavə xərclərin yaranmasına, vəsait itkisinə yol verilməsin. Bunun üçün də artezian quyularının qazılmasında da elmi yanaşma olmalıdır. Kəşfiyyat işləri düzgün aparılmalıdır ki, quyunun qazılması hədər getməsin. Bəzən quyu qazılır, sonra görürlər ki, su itib, yoxdur. Bu onun nəticəsidir ki, quyunun harada, hansı ərazidə qazılması düzgün hesablanmır. O ərazidə suyun olmadığı əvvəlcədən dəqiq müəyyənləşmir. Ya da quyu qazılır, görürlər ki, şoran sudur. Ondan da suvarmada istifadə etmək mümkün deyil. Artezian quyularının qazılması üçün şirin, həm də dayanıqlı su mənbələri tapılmalıdır. Bol sulu çaylarımızla yanaşı, yeraltı çaylar da bizim zəngin su ehtiyatlarımızı təşkil edir. Lakin əsas məsələ onlardan səmərəli istifadə etməkdir. Böyük qayıdış nəticəsində milyonlarla vətəndaşımız doğma yurduna dönəcək. Hər kəs əkib-becərmək, təsərrüfat yaratmaq istəyəcək. Bu da tamamilə təbiidir. Buna görə də bizə su ehtiyatları, necə deyərlər, "hava, su kimi lazımdır". Yalnız qənaət və səmərəli istifadə Qarabağ və ətraf bölgələrdə aqrar sektorun inkişafı üçün əsas şərtlərdən biridir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Cavidin "Şeyda"sı



Şeyda sözü klassik ədəbiyyatımızda tez-tez işlədilmişdir. Mənası eşqdən ağlını itirən, divanə mənasını verir. Məhəmməd Füzulinin məşhur "Məni candan usandırdı" qəzəlində deyildiyi kimi:

**Füzuli rindu şeydadır**
**həmişə xəlqə rüsvadır**
**Sorun kim bu nə sevdadır**
**bu sevdadan usanmazmı**

Klassik türk-islam ədəbiyyatını İstanbulda öyrənmiş Hüseyn Cavid Şeyda obrazını dörd əsrdən sonra bir daha ədəbiyyatımıza gətirdi. Şeydalığa, Məcnunluğa XX əsr kontekstindən qiymət verdi. Birinci cahan savaşında həyatının mənasını görməyən, intihar etmək istəyən, qarşılıqsız sevgi yaşayan Şeyda Rəmzi bir qəzet işçisidir. Yayğın atalar sözündə deyildiyi kimi: "Arifə bir işarə də kifayətdir". H.Cavid obrazı remarkada Şeyda Rəmzi adlandırmaqla da təsadüfi bir iş görməmişdir. Rəmz sözü bilənlər üçün işarə simvol anlamını verir. Cavid bununla özündən əsrlər öncəki ədəbiyyata da bir göndərmə ötürür. Şeydanı bir daha xatırladır. Müxtəlif insanların üsyan etdiyi zamanda o, öz iş yoldaşlarının işçi hüquqlarını qoruyur. Şeyda burada Füzulinin bəhs etdiyi kimi öz eşqinə qapılıb qalaraq xalq arasında rüsvay olmur. Xalqın içindən xaliqə doğru bir yol getmək istəyir.

Alman rəssam Maks Müller də ona yüksək qiymət verir. O, Şeydanı öz qızına ər kimi görür. Buna səbəb isə Şeyda da türk nəcabətini görməsiylə ilə bağlıdır. Alman rəssamı hətta onun ev problemini də həll edir. Lakin onun qızı Roza Şeydaya ancaq acıyır, onu sevmir. Mətbəənin sahibi Məcid əfəndinin oğlu Əşrəfi sevir. Əşrəfdən savayı Şeydanın önündə mane olan bir Qara Musa da var. Bu, Cavidin keçmiş arxetiplərdən süzülüb gələn yeni dəlisov romantik qəhrəmanıdır. Musa öz qolunu işlədiyi yerdə itirmiş, yenidən çalışmaq ümidi ilə Məcid əfəndidən iş istəyir. Musa peyğəmbər öz qövmünü xilas etmək üçün Firona xahiş edən kimi Qara Musa da özünün xəstə qardaşının qurtuluşu üçün Məcid əfəndiyə xahişlə müraciət edir. Dövrünün kiçik fironlarından olan Məcid isə "tək əldən səs çıxmaz" deyə onu hiddətlə rədd edir. Bundan sonra Musanın üsyan bayrağı dalğalanmağa başlayır.

Şeyda sevgisinin acısını çəkməklə yanaşı mətbəədəki üsyan ruhlu marşlarını qələmə alır. Lakin Şeyda təkcə bir sıradan üsyançı yox, həm də bir dərin düşüncəli şəxsdir. Məcid əfəndiyə və onun zülmünə münasibət bildirərkən "Məcid əfəndi kimdir Yalnız o deyil, hətta onu qudurtan qocaman rus çarlığı belə bu gün-yarın yerin dibinə batır" deyir. Ədəbiyyatımızda ilk dəfə romantik üslubla olsa belə acı reallığa bu cümlələrlə münasibət ifadə olunur. Xalqın düşdüyü ağır durum zalımların arxasında işğalçı gücün dayandığı açıq bəyan edilir. Şeyda sol ideyalara sahiblənsə də, özündə bir istiqlalçılıq məfkurəsini də daşıyır.

Yaz günlərinin birində Musa tapançası ilə birgə özünün qisasını almaq istəyir. Artıq qisas hisslərinə hakim olmayan qəhrəman bir şikar axtarır. Şeyda onun bu sözlərinə təəccüblənir. Məqsədi Əşrəflə Məcid əfəndini öldürmək olan Musa niyyətini tam həyata keçirə bilmir. Əşrəfi öldürmək istəyi zaman Rozanı qətlə yetirir. Bununla Musa "Əsli Kərəm" dastanında olan Qara Keşişi xatırladır. Onun sayəsində müsəlman oğlan xristian qız bir-birinə qovuşmayan kimi Şeydayla Roza cismən ayrılırlar. Məcid əfəndinin tək əli ilə həyatına son qoymaqla o, Musa peyğəmbəri xatırlatmış olur. Xahişləri eşitməyən firon qəhr olan kimi Məcid əfəndinin yalvarışlara qulaq verməyərək özünü həlak edir. Musanın bu hərəkəti ədəbiyyatşünaslar tərəfindən sıradan terrorçuluq kimi qiymətləndirilmişdir. Lakin Musa Məcidi öldürməklə çar Rusiyasının qudurduğu bir şəxsi aradan götürmüş olur. Əslində Məcid əfəndinin Rusiya imperiyasının dağılmasından öncə öldürülməsi elə inqilabın özünü əks etdirir. Musa bu hərəkəti ilə "tək əldən səs çıxmaz" atalar sözünün də tərsini sübut etmiş olur. Musa həmçinin gücsüzləri çeynəyib əzməsinlər deyə Məcidi öldürür. Bu obraz sonradan" İblis" əsərində Elxanın ortaya çıxmasına zəmin yaradır. Elxan da zəifləri və din adına şeytani oyunda iştirak edən papas, xaxam, şeyxi güllələtdirir.

"Şeyda" pyesində Azərbaycanın gələcək istiqlalının müjdəsi də verilmiş olur. Raufun "Yəqindir ki, qocaman şimal ayısının dərisi parçalansın. Müstəbid rus zənciri üzərimizdən qalxsın və hər millət kəndi yurduna, kəndi hüququna qovuşsun" deyərək özünün romantik qəhrəmanlığını əks etdirir.

İnqilabçı kimi tanınan Şeyda və iş yoldaşları da Musayla birlikdə həbsə atılır. Rauf içərisində istiqlal sevgisini daşımaqla yanaşı Şeydanın mənəvi cəhətdən göylərə qalxmasını yuxusunda görür.

Rozayla cismən ayrılan Şeydanın gözünə Qara Mələk görünür. O özünün ayrılma vəzifəsinə zidd olaraq hərəkət edir. Qara Mələyin onun alman qızına olan məhəbbətini ilahi eşq adlandırır, ulduzların alqışladığını söyləyir. Şeydayla Rozanın yüksəkliklərə qovuşması bir yandan da Şeyx Sənan əsərinin də sonluğunu xatırladır. Buna görə də Qara Mələk sevənləri mənən bir-birinə qovuşdurur. Anton Çexovun qəhrəmanı Sorin də daxilində problemlər yaşayandan sonra Qara Rahib gözünə görünür, onunla söhbət edir. Hər iki qəhrəman əslində yüksək həyat idealları ilə yaşayırlar. Əslində bu mənəvi birliyə səbəbkar Qara Musa olur. Məhz onun Rozanı öldürməsi Şeydanın onunla mənən qovuşmağına kömək edir. Herman Hessenin "Yalquzaq" romanında təsvir edilən manifestdə belə fikirlər yer alıb: "Allahın sehrinə düşən hər kəs istənilən vaxt, istənilən canini təsdiq də, inkar da edə bilər". Qara Musa bir obraz kimi bu kontekstdə işlənmişdir. H.Cavid əsərin sonluğunu belə verməklə əslində Musanı da mənən böyüdür, göylərə qaldırır. Bu, şairin idealist təfəkkürünün ən yüksək qatlarından birini ifadə edir.

Fevral inqilabının xəbəri həbsxanaya çatır. Xəbəri verən zaman Musa Qara Musaya çevrilmiş olur. Dramaturq H.Cavid türk dilində mənası böyük olan qara kəlməsinin Musanın önünə epitet kimi işlətməklə də bu obrazın ictimai yükünü daha da yüksəltmiş olur. Musa tamamilə bütövləşmiş bir obraza çevrilir. Azərbaycan ədəbiyyatında inqilaba münasibət müxtəlif şəkillərdə özünü göstərmişdir. Əli bəy Hüseynzadə 1905-ci ildə qələmə aldığı "Hürriyyət" məqaləsində o ilin inqilabına olduqca nikbin münasibət ifadə etmişdir. Yazısının sonunda sevincindən bağırmaq istəməsini demişdir. Rauf inqilabla bağlı sevincini ifadə edən zaman Məsudun "Əvət, bu da başqa xülya, bu da başqa bir röya" deməsi isə daha çox bir filosofun düşüncələrini göstərir. H.Cavid Ə.Hüseynzadədən fərqli olaraq inqilaba şübhəli mövqeyini ortaya qoyur. Sanki Hüseyn Cavid Məsudun dilindən inqilabı xülya adlandırmaqla həm də özünün və başqa ziyalıların 1937-ci ildə başlarına gələcək fəlakətlərində ehtimalını irəli sürür.

Şeyda pyesi H.Cavid yaradıcılığı üçün mühüm rol oynamış əsərlərdən biridir. Dramaturq ictimai proseslərə özünün estetikası, irfani münasibəti ilə qiymət vermişdir. Hüseyn Cavidi uzun müddət sağlığında və ölümündən sonra qınayanlar onun guya yaşadığı mühitdə etinasız olduğunu qeyd edirdilər. Ancaq əminliklə bu gün deyə bilərik ki, "Şeyda" ilə Cavid əsl inqilaba, dünya müharibəsinin gətirdiyi fəlakətlərə öz aydın münasibətini ifadə etmişdir.

**Ceyhun Mirzəli**

## "Görün, biz sizi öz sıramıza qəbul edirik?"

Aparıcı Manaf Ağayev və Cavanşir Məmmədovun cavabını verdi



**Müğənnilər Manaf Ağayev və Cavanşir Məmmədovun "Həmin Zaur" proqramında jurnalistlər haqda səsləndirdiyi fikirlər müzakirə olunur.**

Onların media nümayəndələrinin ünvanına söylədikləri nalayiq sözlər media cameəsində qəzəb doğurub. "Şərq" xəbər verir ki, aparıcı Mətanət Əliverdiyeva da məlum məsələyə "6/8 axşam şou"sunda münasibət bildirib:

"Digər verilişlərdə bəzi müğənnilər jurnalistlərə onlar bizim dostumuz deyil, onlardan dost olmaz, deyirlər. Görün, biz sizi öz sıramıza qəbul edirik, ya yox. Heç olmasa, Kəlbəcərdə şəhadətə ucalan jurnalistlərə hörmət edin. Sizin rastlaşdıqlarınız özünüz kimi qeyri-peşəkar müğənnilər, jurnalistlərdir. Bu, hər sahədə var. Çox ayıb olsun. Jurnalistləri təhqir etmək olmaz. Onlar hər zaman can qoyan insanlardır. Dünyasını dəyişənlərə, şəhid jurnalistlərə Allah rəhmət eləsin. Heç vaxt özünüzü fikirləşib qarşınızdakını təhqir etməyin. Aparıcılardan xahiş edirəm. Aparıcının özü də bir jurnalistdir. Sual verəndə aciz qalmayın. Şükür Allaha, mən kiminsə qarşısında aciz deyiləm. Başı ucayam".

**Samirə**

## "Əsl sənətkarın ailəsi olmamalıdır"

Nazilə Səfərli bu fikirlə qismən razılaşır



**"Deyirlər ki, əsl sənətkarın ailəsi olmamalıdır". "Şərq" xəbər verir ki, bu sözləri instaqram hesabında şairə Nazilə Səfərli yazıb. O, statusa bunları da əlavə edib:**

"Həmin fikirlə indiyə qədər razılaşmırdım. İndi qismən razılaşıram. Sənətkara dəvə yükü yükləyirlər. Ailənin bütün üzvləri problemlərini sayəndə həll etmək istəyirlər. Cəmiyyət də səni milyonçu sanır. Elə müraciətlər edirlər ki... Başa sala bilmirəm ki, ay balam, o işi görmək potensialında deyiləm. İmkan verin mahnımı oxuyum, şeirimi yazım. Mənim ilə eyni sahədə olan hər kəs eyni dərddədir. Biz yazıq..."

**Samirə**

## "Uşağa görə..."

Dilarə rəsmi nikahının olmasını istəyərdi



**Müğənni Dilarə Kazımova Lamiyə Balacayevanın təqdimatında yayımlanan "Üzə-düz" proqramında özəl həyatından danışıb.**

"Şərq" xəbər verir ki, o, həyatında "heç vaxt etmərəm" demədiyini söyləyib: "Əks halda "gülmə qonşuna, gələr başına" məsəli olur. Desəm ki, ikinci evlilik ola bilməz, sonra birdən görərsiz ki, rəsmi nikahdayam. Qismət olsa, yaşanacaq". O, "Rəsmi nikah olmadan uşaq dünyaya gətirərsinizmi" sualına gəlincə bunları deyib: "Rəsmi nikah olmasını çox istərdim. Əvvəlcə uşağa görə istəyərdim. Özüm rahat olaram. Amma istəmərəm ki, kimsə uşağa nəsə desin, tənə etsin. Məncə, övladıma fikirlərimi düzgün çatdıra biləcəm. O məni başa düşəcək. Anlayacaq ki, dünya dəyişir. Məsələn, bəzi ailələrdə ər arvadını döyür, uşaq da buna şahid olur. Onlar ayrılmaq istəmirlər. Lakin bu qadın və övladı üçün travmadır. İnsanların bir-birini sevməməsini anlamıram. Bəlkə də xoşbəxt ola bilərlər. Düşünürəm ki, çox gözəl ana olaram. Tələbkar davranaram. Övladım olsa da, müəyyən çərçivələrin varlığını bilməlidir. Həm də uşağa basqı etmərəm. Bilirəm ki, həyatını yaşayıb, öz səhvlərini anlamalıdır".

**Samirə**

# TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 07.05.2021-ci il tarixli, 6348-119976/16-15-5 saylı sifarişi ilə, ipoteka predmeti olan, "Kia Optima" minik markalı, 2012-cil il buraxılışlı, ağ mirvari rəngli, 90VM-121 dövlət qeydiyyat nişanlı avtomobilə dair 11 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avtomobil ilkin satış qiyməti olan 18.500 (on səkkiz min beş yüz) manatdan 15% aşağı olmaqla, yəni 15.725 (on beş min yeddi yüz iyirmi beş) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 08 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 786 (yeddi yüz səksən altı) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 3%-dən artıq olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Sumqayıt şəhəri üzrə İcra İdarəsinin 12.04.2021-ci il tarixli, 47/35 saylı sifarişi ilə boyunbağı-kulonlar 1 ədəd (əzik) 585 əyar, çəkisi 7.6 və komplekt 1 ədəd (əzik) 583 əyar, çəkisi 11.8 olan qızıl-zinət əşyalarına dair 11 iyun 2021-ci il, saat 11:00-a (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin qızıl zinət əşyaları ilkin satış qiyməti olan (boyunbağı) 105 (bir yüz beş) ABŞ dolları; (komplekt) 165 (bir yüz altmış beş) ABŞ dollarından 10% aşağı olmaqla, yəni (boyunbağı) 95 (doxsan beş) ABŞ dolları; (komplekt) 149 (bir yüz qırx doqquz) ABŞ dollarına təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 30 iyun 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni (boyunbağı) 10 (on) ABŞ dolları; (komplekt) 15 (on beş) ABŞ dolları miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən artıq olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 30.04.2021-ci il tarixli, 5975-55704/19-15-26 saylı sifarişi ilə, Bərdə rayonu, Otuzikilər kəndində ümumi sahəsi 2.19 ha olan torpaq sahəsi, Xaçmaz rayonu, Canaxır kəndində yerləşən 0.5850 ha torpaq sahəsi və Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən Bərdə rayonu, Otuzikilər kəndində, yaşayış məntəqələrinin torpaqları təyinatlı 0.3000 ha torpaq sahəsinə dair 11 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahələri ilkin satış qiyməti olan (2,19 ha torpaq sahəsi) 17.520 manatdan 10% aşağı olmaqla, yəni 15.768 (on beş min yeddi yüz altmış səkkiz) manata; (0,5850 ha torpaq sahəsi) 6.000 manatdan 10% aşağı olmaqla, yəni 5.400 (beş min dörd yüz) manata; (0,3000 ha torpaq sahəsi) 24.000 manatdan 10% aşağı olmaqla, yəni 21.600 (iyirmi bir min altı yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 30 iyun 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni (2,19 ha torpaq sahəsi) 1.577 (bir min beş yüz yetmiş yeddi) manat; (0,5850 ha torpaq sahəsi) 540 (beş yüz qırx) manat; (0,3000 ha torpaq sahəsi) 2.160 (iki min yüz altmış) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən artıq olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

---

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

6) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

7) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

8) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

9) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 5 (beş) iş günü müddətində geri qaytarılır;

10) İpoteka predmetləri üzrə hərrac baş tutmadıqda, habelə keçirilməsindən imtina edildikdə hərracın təşkilatçısı tərəfindən beh məbləği 7 (yeddi) təqvim günü müddətində geri qaytarılır;

11) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

12) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**

---

# HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Şəmkir rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli (daxil olma 14.06.2021), 1701/2021-12 saylı sifarişi ilə Şəmkir şəhəri, Ü.Hacıbəyov küçəsi, 2-ci döngə, 4 saylı ünvanda yerləşən 0,05 ha torpaq sahəsi və 3 otaqdan, mətbəx, zal, hamam və tualetdən ibarət, ümumi sahəsi 119,1 kv.m. olan 1 (bir) mərtəbəli, orta təmirli fərdi yaşayış evi açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 30 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti ümumilikdə 60.000 (altmış min) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (60.000) 10%-i, yəni 6.000 (altı min) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Şəmkir rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli (daxil olma 14.06.2021), 144355/2019-12 saylı sifarişi ilə Şəmkir şəhərində yerləşən 0,8281 ha torpaq sahəsi açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 30 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 3.500 (üç min beş yüz) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (3.500) 10%-i, yəni 350 (üç yüz əlli) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Bakı şəhəri, Nərimanov rayon İcra Şöbəsinin 7185-240154/2018-15-27 saylı, 10.06.2021-ci il tarixli (daxil olma 14.06.2021) sifarişi ilə 1 (bir) ədəd balans aparatı (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd yağ dəyişən aparat (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd tozsoran dərmanvurma aparatı ilə birgə (istifadə olunmuş vəziyyətdə), 3 (üç) ədəd başakçı təkər qaldırıcı (istifadə olunmuş vəziyyətdə), 2 (iki) ədəd təkər açan (istifadə olunmuş vəziyyətdə), 1 (bir ədəd) yuyucu aparat (işləmir), 1 (bir) ədəd kompressor (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd təkər sökən (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd avtomobil qaldırıcı (istifadə olunmuş vəziyyətdə) açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 30 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir.

Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir.

Əmlakların ilkin satış qiyməti ümumilikdə 9.500 (doqquz min beş yüz) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (9.500) 10%-i, yəni 950 (doqquz yüz əlli) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

6) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

7) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

8) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

9) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 5 (beş) iş günü müddətində geri qaytarılır;

10) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

11) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**

## "European Tobacco-Baku" ASC – nin 2020-cı il üzrə Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| Göstəricilər | 01.01.2021 |
|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 3 566 168,84 |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | 0,00 |
| azlıq təşkil edən mülkiyyətçilərin payı | 0,00 |
| fövqəladə gəlirlər və xərclər | 0,00 |
| mənfəət vergisi üzrə xərclər | 713 233,77 |
| qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | 0,00 |
| investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr | 0,00 |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | |
| ehtiyatların artması (azalması) | -2 077 683,79 |
| əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri artması (azalması) | -22 409 165,21 |
| əməliyyat kreditor borcları və hesablaşmaların artması (azalması) | 171 694,56 |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | 0,00 |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | 0,00 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-20 035 751,84** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də, uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları | 0,00 |
| Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | 0,00 |
| Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin daxilolmaları | 0,00 |
| Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların satışından yaranan pul vəsaitlərinin daxilolmaları | 0,00 |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları | 0,00 |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları | 0,00 |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | 0,00 |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | 0,00 |
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin xaricolmaları | 0,00 |
| Fyuçers, forvard, opsion və svop müqavilələrindən yaranan pul vəsaitlərinin daxilolmaları | 0,00 |
| Dividentlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları | 0,00 |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | 0,00 |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | 0,00 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **0,00** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | **0,00** |
| Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | 0,00 |
| Müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları | 0,00 |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | 0,00 |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | 0,00 |
| Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | 0,00 |
| Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | 0,00 |
| Maliyyə icarəsi müqavilələrinin şərtlərin ə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | 0,00 |
| Dividentlər və buna oxşar digər ödəmələ şəklində pul vəsaitlərinin xaricolmaları | 0,00 |
| Faizlər şəklində rul vəsaitlərinin xaricolmaları | 0,00 |
| Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar | 0,00 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar** | 0,00 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **-195 870,73** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti** | **01.01.2021** |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | **68 212,72** |
| İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | 0,00 |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | **68 212,72** |

## Azercell-in dəstəyi ilə fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidmətinə son 5 ay ərzində 2 mindən çox müraciət daxil olub!




**Ölkəmizin parlaq gələcəyi üçün bu gün uşaqların sağlam mühitdə böyüməsi əsas şərtlərdən biridir.** Təəssüf ki, hər bir cəmiyyətdə təzyiqlə üzləşən, sıxılan, hüquqları pozulan uşaq və yeniyetmələrə rast gəlmək olur. On bir ildən artıqdır ki, Azercell-in, UNİCEF Azərbaycanın və "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin birgə əməkdaşlığı ilə fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidmətinin əsas məqsədi məhz müxtəlif çətinliklərlə üzləşən uşaqlara təmənnasız kömək etməkdir. Yarandığı ilk gündən etibarən bu xidmətin əməkdaşları həmyaşıdları ilə problem yaşayan, psixoloji və mənəvi yardıma ehtiyacı olan uşaqlara dəstək verir, onların sosial mühitə uyğunlaşmalarına yardım edir.

Xidmət cari ilin yanvar-may ayları ərzində 2386 müraciəti cavablandırıb. Müxtəlif sahələrlə bağlı daxil olan zənglərin böyük qismi (793 müraciət) təhsil sahəsinə aid olub. Beş ay ərzində qaynar xəttin ekspertləri hüquqi prosedurlara dair 481 müraciət qəbul ediblər. Yerdə qalan zənglər psixoloji (340 müraciət), sosial (236 müraciət), səhiyyə (137 müraciət) və digər məsələlərlə əlaqədar (399 müraciət) yardım istəyi olub.

"Uşaq Qaynar Xətt" xidmətinə yalnız uşaqlar deyil, onların valideynləri və yaxınları da müraciət edir. Belə ki, yanvar-may aylarında mərkəzə daxil olan zənglərin 1772-si 18 yaşdan yuxarı, 506-sı isə uşaq və yeniyetmələr tərəfindən edilib. Yardım istəyənlərin 1203 nəfəri qadın, 1075- i kişi olub. Həmçinin mərkəzə sosial şəbəkələr üzərindən anonim formada müraciətlər edənlər də olub. Son 5 ay ərzində qaynar xətt tərəfindən 34 ailə ilə görüş həyata keçirilib, 94 sosial-psixoloji reabilitasiya işi aparılıb.

Qeyd edək ki, bu ilin ilk 5 ayı ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidməti tərəfindən onlayn vebinar və canlı yayımlar təşkil edilib. "Yeniyetməlik dövrünün psixoloji və fizioloji aspektləri" mövzusunda canlı yayım, yeniyetmə və gənclər üçün "İntihara son deyək!", "Özünü yalnız hissetmə sindromu" vebinarları sosial şəbəkə istifadəçiləri tərəfindən maraqla qarşılanıb.

Bu müddət ərzində uşaq və yeniyetmələr üçün "Klinik Müsahibələr", eləcə də "Uşaqlar və Ailələrlə sosial iş və reabilitasiyanın təşkili" təlimləri baş tutub. "Uşaq Qaynar Xətt" xidmətinin iştirakı ilə həm də ZOOM platformasında uşaq zorakılığına qarşı mübarizəyə həsr olunmuş 10 günlük beynəlxalq təlim keçirilib. Həmçinin sosial şəbəkələr üzərindən maarifləndirmə kampaniyaları da davam etdirilib.

*Xatırladaq ki, 2017-ci ildə Azercell şirkətinin təşəbbüsü və dəstəyi ilə "Uşaq Qaynar Xətt" xidmətinin İOS və Android əməliyyat sistemləri üçün nəzərdə tutulan mobil tətbiqləri də istifadəyə verilib. "Azərbaycan Uşaq Qaynar Xətt"xidmətinə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, elektron poçt, Facebook və Instagram sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və "uşaqqaynarxetti" mobil əlavəsi vasitəsilə müraciət etmək olar.*

# Evlənməyə ölkə axtarırlar

## Əkiz bacılar eyni adamla nişanlanıblar



(Əvvəli səh: 16-da)

35 yaşlı əkiz bacılar - Anna və Luki DeCinque eyni adamla nişanlanıb. 8 ildir bu 3-lük birgə həyat sürür. Lakin ölkələrində çoxarvadlılıq qadağandır deyə, evlənmək üçün üçüncü ölkə axtarışındadırlar.

"Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, əkiz bacılar Avstraliyanın Pert şəhərində yaşayırlar. Bu ölkənin "TLC" televiziyasında yayımlanan "Extreme Sisters" - "Qeyri-adi bacılar" realitişousuna qatılan əkizlər həyatlarında baş verən ilginc hadisələr barədə danışıblar. Məlum olub ki, bacılar tək yumurta əkizləridir. 2011-ci ildə elektrik ustası Ben ilə tanış olublar. Proqramda bacılar Beni aralarında necə paylaşdıqlarına aydınlıq gətiriblər və deyiblər ki, hər ikisi də eyni vaxtda ana olmaq arzusundadır. "Biz bir adam olduğumuzu düşünürük. Benin də əkiz qardaşı var. Ona görə o, aramızdakı əlaqəni anlayır. Eyni libaslar geyinirik, eyni zinət əşyalarından istifadə edirik. Bizim üçün kişi dostumuzu paylaşmaq hər zaman birlikdə ola biləcəyimiz anlamına gəlir. Bu əlaqədə, bu birgəlikdə qısqanclıq yoxdur. Məsələn, Ben Annanı öpürsə, ardından dərhal da məni öpür", deyən Luki internet istifadəçilərinin hədəfində olduqlarını, bir çox insanın onların bu əlaqəsini iyrənc hesab etdiyini söyləyib. "Amma biz xoşbəxtik. Təhqirlərə əhəmiyyət vermirik". Əkiz bacılar eyni adamla elə bu televiziya proqramının yayımı zamanı nişanlanıb. 3-lük nişan üzüklərini taxıb. Bacıların üzükləri almaz qaşlı olub. Beni isə "Anna mənim üçün dünyalara dəyərsən, həyatımı səninlə keçirmək istəyirəm", deyib, sonra da eyni sözləri Lukiyə söyləyib: "ikinizi də sevirəm". Çoxarvadlılıq Avstraliyada rəsmən qadağan olduğu üçün 3-lük Malayziya, İndoneziya və ya Amerikanın bəzi bölgələrində evlənə biləcəkləri fikrini irəli sürüblər.

## Məlumat

Xaçmaz rayon İcra Şöbəsinin 18 may 2021-ci il tarixli, 355/20 saylı sifarişi üzrə, Xaçmaz rayonu, Köhnə-Xaçmaz kəndində yerləşən 0.80 ha, 0.20 ha, 0.10 ha və 0.39 ha kənd təsərrüfatı və Xaçmaz rayonu, Müqtədir qəsəbəsində yerləşən 0.06 ha həyətyanı torpaq sahələrinə dair 16 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamışdır.

**"Əmlak Hərrac Mərkəzi" MMC**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1071

# Evlənməyə ölkə axtarırlar

## Əkiz bacılar eyni adamla nişanlanıblar



**35 yaşlı əkiz bacılar - Anna və Luki DeCinque eyni adamla nişanlanıb.**

8 ildir bu 3-lük birgə həyat sürür. Lakin ölkələrində çoxarvadlılıq qadağandır deyə, evlənmək üçün üçüncü ölkə axtarışındadırlar. "Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, əkiz bacılar Avstraliyanın Pert şəhərində yaşayırlar. Bu ölkənin "TLC" televiziyasında yayımlanan "Extreme Sisters" - "Qeyri-adi bacılar" realiti-şousuna qatılan əkizlər həyatlarında baş verən ilginc hadisələr barədə danışıblar.

*(Davamı səh: 15-də)*

# 3 yaşlı qızın qeyri-adi istedadı üzə çıxıb




**Pandemiya dövründə Bridcitin valideynləri ona hansısa bir məşğuliyyət tapmaq istəyiblər.**

Milli.Az xəbər verir ki, bu zaman qızın qeyri-adi istedadı üzə çıxıb.

Üçyaşlı qız pianoda ifa etməyi mənimsəyib və indi dünya arenalarında çıxış etməyə hazırlaşır.

# Ötən il ayrılıblar

## Model keçmiş ərinin övladını xaricə qaçırmasından qorxur





**Model Tülin Şahin ilə keçmiş əri Pedro de Noronha arasında baş verən qalmaqal günlərdir gündəmdən düşmür.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, Şahin qızı Siena Leylanın atası Pedro ilə ötən il ayrılıb. Şahin Noronhanın telefonla danışığını eşidib. O, keçmiş ərinin övladını xaricə qaçırmasından qorxduğunu deyib. "Telefonda deyirdi ki, Leylanı xaricə qaçırmaqdan qorxuram. Bir nəfərə avtomobili Bolqarıstana və ya Yunanıstana gətirməsini deyirdi" deyə, model söyləyib. Bunla bağlı yaxın dostlarına danışan Tülin narahat olduğunu deyərək, kömək istəyib. Modelin yaxınları Pedronun onu döyməklə yanaşı 1 yaşındakı qızına da şiddət göstərdiyini bildirib.

# Qalmaqal bitmək bilmir

## Keçmiş arvadının maşınını da əlindən aldı



**Aktyor Özcan Dənizlə keçmiş arvadı Feyza Aktan arasındakı qalmaqal bitmək bilmir.**

Axşam.az xəbər verir ki, oğulları Kuzey üçün qəyyumluq davası açan tərəflər bu dəfə avtomobil məsələsində üz-üzə gəldilər. İllərdir Özcanın adına olan avtomobildən istifadə edən Feyza polis tərəfindən saxlanılıb. Sürdüyü maşının sığorta vaxtının bitdiyi öyrənilən Aktan nə qədər çalışsa da, polisləri yola gətirə bilməyib, maşın dayanacağa aparılıb. Feyza borcu ödəmək istəsə də, maşın sənətçinin adına olduğu üçün qəbul olunmayıb. Bu hadisədən sonra Özcan avtomobili Feyzadan geri alıb.

*Deniz sevgilisi Samar Dadgara 1 milyonluq maşın alıb. Sənətçinin Feyzadakı maşının sığorta vaxtının bitdiyini bilib, qəsədn sevgilisinə eyni vaxtda avtomobil aldığı iddia elib. Maşınsız qalan Aktan hazırda evindən çıxmır.*



# İllərdir kovboy həyatı yaşayır

## Və bundan pul qazanır





**Adıyamanın Besni əyalətinə bağlı Karagüvec kəndində yaşayan "Kovboy" ləqəbli 56 yaşlı Cumali Ozan kovboy qiyafəti geyinərək at belində gəzir və bununla əməlli-başlı pul qazanır.**

"Milliyet" yazır ki, Cumali Ozan kovboy görkəmini qazanc qapısına çevirib. Cumali deyir ki, kiçik yaşlarından kovboy filmlərini izləməyi sevib, kovboyların istifadə etdiyi danışıq dilindən gündəlik həyatında istifadə edir, onlara bənzəməyə çalışır, kovboyların jestlərini, hərəkətlərini təqlid edirmiş. Qiyafətlərndə də kovboyların libaslarındakı detallardan istifadə edirmiş. Zamanla bu onda alışqanlıq halının yaranmasına səbəb olub və o, özünü artıq kovboy həyatının ortasında görüb. Özünə dost da tapıb. Talib Şimşək adlı həmkəndlisi özü üçün çuvaldan hindu geyimi hazırlayıb. Beləcə qoşalaşıblar. Videolar çəkib sosial mediada paylaşan dostların izləyiciləri artdıqca müxtəlif bayram, festival tədbirlərinə dəvətlər də artıb. Onlar da səhnələrə çıxaraq pul qazanmağa başlayıblar. "Kəndin çevrəsində, hətta şəhərdə də məni tanıyırlar. Məni görənlər "xoş gəldin, kovboy", deyir, filmlərlə maraqlandığımı bilirlər. Filmləri, ssenariləri çox sevirəm. İbtidai sinfi bitirmişəm, lakin çox gözəl rəsm və karikaturalar çəkirəm" söyləyən C.Ozan səhər tezdən qalxır, atına minir və bağçada çay dəmləyir, kovboy həyatı yaşamağa çalışır. Kəndlilərsə, "əvvəllər ona təəccüblə baxırdıq, amma artıq alışmışıq. Bizi əyləndirir, güldürür, kimsəylə işi yoxdur, xətrini istəyirik. Ona kənddə hamı "kovboy" deyir", söyləyirlər.

**Məlahət**

# Var-dövlətlərini satıb dünya turuna çıxdılar

## Xəyallarını gerçəkləşdirən ailə bir çox ölkələrə səyahət ediblər





**Fransız fotoqraf Eric Guedeney həyat yoldaşı Joelle Bezal və oğlu Tao ilə 2 il əvvəl dünya turuna çıxmaq qərarına gəlib. Bu tur üçün karvan avtomobil alıb və bu karvan avtomobil üçün demək olar bütün var-dövlətini satışa çıxarıb.**

Xəyallarını gerçəkləşdirən ailə bir çox ölkələrə - İtaliya, Albaniya, Şimali Makedoniya və Yunanıstana səyahət ediblər, 2 ay yarım əvvəlsə Ədirnədən Türkiyə ərazisinə daxil olublar. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, fransız ailə Türkiyədə İstanbul, Bursa, Balıkesir, Manisa, İzmir, Aydın, Dənizli və Muğlada olublar. Səyahət turuna hazırda Antalyanın Demre bölgəsində davam edən ailə indiyədək 9 min kilometr yol qət edib. Fransız ailə Türkiyədə qalmaq müddətlərini 6 ay və ya 1 ilədək uzatmaq və ölkəni başdan-ayağa gəzmək fikrindədirlər. Daha sonra isə İrana, oradan da Azərbaycana keçmək, sonra da səyahətlərinə Türkmənistan, Özbəkistan, Qazaxıstan, Monqolustan, Rusiya, hətta Çinə qədər davam etməyi planlaşdırırlar. Çindənsə Hind-Çin ölkələrini, Pakistan və Əfqanıstanı gəzərək təkrar İrandan Türkiyəyə gəlmək istəyirlər. Maraqlıdır ki, məktəbli olan Tao səyahət boyunca dərslərinə distant formada davam edir. Fransız fotoqraf həyat yoldaşının tibb bacısı olduğunu deyib. Və dünyanın harasında olursa-olsunlar peşələrini davam etdirə biləcəklərini söyləyib. Yəni, ailə üçün səyahət etməkdə heç bir sıxıntı yoxdur. Eric öz sənətiylə məşğuldur, foto və videolar çəkərək Fransadakı televiziya kanallarından birinə satır və maddi ehtiyaclarını ödəyə bilir, lazım gələrsə həyat yoldaşı tibb bacısı işini davam etdirə bilər, övladları da dərslərini distant formada oxuyur. "Fransada nəyimiz vardısa satdıq və bu karvan avtomobili aldıq. Bu karvan artıq bizim evimizdir. Türkiyədə isə uzun müddət qalmaq istəyirik" deyən Eric Türkiyədə özlərini təhlükəsiz hiss etdiklərini, hətta Fransaya heç dönməyə biləcəklərini də bildirib: "Türkiyənin ən böyük zənginliyi insanlarıdır. Qonaqsevər, səmimi, istiqanlıdırlar. Nə olursa-olsun, üzləri gülür. Hər kəs bir ikramda bulunmağa çalışır. İnsanlar yaxşılıq etmək üçün yarışırlar sanki. Türkiyədə qalmaq istəyimizin səbəbləri bunlardır. Dostlarımıza bunu anlatmağa çalışırıq".

**Məlahət**